

"Azərbaycanlı qardaşlarımızın yanında olmağa davam edəcəyik"

5

Səs

№ 171 (6612) 21 sentyabr 2022-ci il. Qiymıəti 60 qəpik

# Azərbaycan - Pakistan münasibətləri: dostluq və həmrəyliyin nümunəsi

2



# "Nensi nənənin" təxribatçı nağılları: kimlər məsuliyyət daşıyır?

*Yaxud, hədəf Cənubi Qafqaz və onun timsalında güclü Azərbaycandır...*



4

*ABŞ Konqresinin Nümayəndələr palatasının rəhbəri Nensi Pelosinin Ermənistana səfəri və orada açıq-aşkar Azərbaycan əleyhinə səsləndirdiyi bəyanatları özündə bir sıra düşündürücü məqamları ehtiva etdi. Fəqət, bu barədə tam mövzuya keçənə qədər digər mühüm xatırlatmaları etmək də yerinə düşərdi.*

## Səfirliklərimizə hücumlar: pərdəarxası məqamlar nədir?



11

## Sosial şəbəkə profilləri və ya səhifələri niyə bloklanır?



7

## Erməni hərbi eksperti heyranlıqla etiraf etdi ki...



13

## Qarabağa yaşamağa qayıdanlar üçün MÜHÜM XƏBƏR!



10



## Rəqabətə davamlı turizm ölkəsi

*Böyük İpək Yolunun üzərində mühüm dayanacaq kimi tanınan Azərbaycan inkişaf dövrünü yaşayaraq, daha geniş şəkildə xarici ölkələrdən turistləri qəbul edib.*



## Qanunsuz balıq ovladı, üstəlik qayığı da yandırdı...

16

*Kürdə qanunsuz balıq ovlayan şəxslər dövlət qurumunun qayığını yandırıblar.*

## Zəngəzur, Göyçə və İrəvanla bağlı yeni qərar - Ermənistan sülh sazişi imzalamasa...



# Azərbaycan - Pakistan münasibətləri: dostluq və həmrəyliyin nümunəsi



## Rəsmi xronika

Prezident İlham Əliyev Daşkəsən rayonunun Daşkəsən-Xoşbulaq-Astaf avtomobil yolunun əsaslı təmiri ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunun işğaldan azad olunmuş Zabux və Sus kəndlərinin layihələndirilməsi və tikintisi işləri ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl rayonunun işğaldan azad olunmuş Şükürbəyli kəndinin layihələndirilməsi və tikintisi işləri ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

***Azərbaycana qardaş və dost ölkələrdən olan Pakistan hər zaman ölkəmizin yanında olub. Bu münasibətlər qarşılıqlıdır. Ermənistanın Azərbaycana qarşı təcavüz və təxribatları, günahsız insanlara qarşı hücumları daim Pakistan xalqı, dövləti tərəfindən pislənilmişdi. Sentyabrın 16-da Səmərqənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Pakistan İslam Respublikasının Baş naziri Şahbaz Şərif ilə görüşü bu münasibətlərin davamlığını təsdiqləyir.***

Görüşdə Prezident İlham Əliyev əlaqələrimizin inkişafından məmnunluğunu ifadə edərək 44 günlük Vətən müharibəsində Pakistanın Azərbaycana göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini bildirib. Prezident İlham Əliyev Pakistanın Ermənistanın Azərbaycana qarşı otuzillik işğalı dövründə bu dövlətlə diplomatik əlaqə qurmayan üç ölkədən biri olduğunu vurğulayıb. Pakistan Azərbaycanın müstəqilliyini tanıyan, onunla diplomatik əlaqələr yaradan və Azərbaycanda səfirliyini açan ilk müsəlman dövlətlərindən biridir. Bakıda Pakistanın, İslamabada isə Azərbaycanın daimi nümayəndəliyi açılmışdır. Pakistan və Azərbaycan arasındakı əlaqələr siyasi, iqtisadi, təhlükəsizlik, mədəniyyət, müdafiə və digər sahələri əhatə edir. Hər iki ölkə bir-birinə sıx dostluq əlaqələri ilə bağlıdır. Hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlıq xalqlar arasında ənənəvi dostluq və qarşılıqlı etimadın təzahürüdür. 1995-ci ilin oktyabrında Pakistan Prezidenti Sərdar Faruk Əhməd Xan Leqari Azərbaycanda rəsmi səfərdə olub. Səfər çərçivəsində iki ölkə arasında bir sıra sənədlər, o cümlədən, Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında Azərbaycan-Pakistan Birgə Komissiyasının yaradılması haqqında Protokol imzalanıb, "Azərbaycan Respublikası və Pakistan İslam Respublikası arasında Əməkdaşlıq haqqında Müqavilə" bağlanıb. 9 aprel 1996-cı ildə isə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Pakistanda rəsmi səfərdə olub. İki ölkə arasında münasibətlərin inkişafına xüsusi təkan verən bu görüşdə bir sıra sənədlər imzalanıb. Ulu Öndər Heydər Əliyev bildirirdi ki, Pakistan dövləti Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünü daim pisləyib. Ermənistanı bir təcavüzkar kimi ittiham edib. BMT-nin Təhlükəsizlik Şurasında bu məsələ müzakirə edilərkən Pakistanın nümayəndəsi Azərbaycana çox ədalətli münasibət göstərib və yardım edib. Vurğulamaq yerinə düşər ki. 1993-cü il aprelin 30-da Ermənistan - Azərbaycan Qarabağ münaqişəsi ilə bağlı BMT TŞ-nin 822 saylı qətnaməsinin qəbul edildiyi iclasa Pakistan sədrlik edib.

### MÜDAFİƏ VƏ HƏRBİ SAHƏDƏ ƏMƏKDAŞLIQ

Qardaş ölkə Qarabağ münaqişəsi ilə bağlı öz qəti mövqeyini hər zaman ifadə edib. Azərbaycana dəstək vermək və həmrəylik nümayiş etdirməklə Ermənistanla diplomatik əlaqələr qurmayıb, onu bir dövlət kimi tanımayıb. Pakistan Senatının Xarici Əlaqələr Komitəsi Azərbaycana dəstəyini möhkəmləndirmək üçün Xocalı faciəsini genosid kimi tanımışdır.

Dövlətlərarası rəsmi səfərlər bu münasibətləri daha da sıxlaşdırıb. 2005-ci il aprelin 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pakistana iki günlük rəsmi səfər edib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Pakistan Prezidenti Pərviz Müşərrəfin görüşündə ölkələrarası münasibətlər müzakirə olunub, nəqliyyat, informasiya və kommunikasiya, aviasiya, mədəniyyət, maliyyə və təhsil sahəsində 6 əməkdaşlıq sazişi imzalanıb. Keçirilən görüşlər, imzalanan bu və ya digər sənədlər Azərbaycan ilə Pakistan arasında əməkdaşlığın davamlı olduğunu göstərir. Pakistan dünyada Azərbaycana ən yaxın müttəfiq ölkələrdəndir. Azərbaycanın qardaş ölkə ilə əməkdaşlığında hərbi siyasi amil də hər zaman mühüm rol oynayıb. Bu cəhətdən, Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında 2002-ci ildə imzalanan müdafiə və hərbi sahədə əməkdaşlıq haqqında sazişdə hər iki ölkənin hərbi-siyasi sahədə tərəfdaşlığının prioritet istiqamətləri əks olunub.

### PAKİSTAN 44 GÜNLÜK MÜHARİBƏDƏ AZƏRBAYCANI DƏSTƏKLƏDİ

2020-ci ilin 27 sentyabrında ölkəmizdə Vətən müharibəsi başlayanda Pakistan xalqı Azərbaycana dəstək nümayiş etdirdi və bizim yanımızda olduqlarını təsiqlədilər. Pakistan dövləti Azərbaycanın ədalətli mövqeyini bütün səviyyələrdə, o cümlədən beynəlxalq təşkilatlarda dəstəkləyib, ölkəmizə maddi və mənəvi dəstək olub. Təbii ki, bu münasibət dövlətlərimiz arasında əlaqələrin inkişafından, dostluq və səmimi qardaşlıq münasibətlərindən qaynaqlanır.

Ermənistanın Azərbaycana qarşı təcavüzünə, terrorçuluğuna, mülki insanlara qarşı hücumlarına Pakistan hər zaman mövqeyini bildirdi. Vətən müharibəsində Pakistan Senatı və Milli Assambleyası tərəfindən qətnamələr qəbul edildi. Təbii ki, bu münasibət dövlətlərimiz arasında əlaqələrin inkişafından və səmimi qardaşlıq münasibətlərindən qaynaqlanır. Azərbaycan Prezidenti İlham Əliyev müharibənin ilk günlərindən Pakistanın ali rəhbərliyinin ərazi bütövlüyümüzün bərpasında Azərbaycana tam dəstəklərini ifadə etdiklərini bildirmişdir:"Bu, bizim əməkdaşlığımızın çox mühüm elementi və qardaşlıq əlaqələrimizin həqiqi nümayişidir. Pakistanın digər yüksək rütbəli rəsmiləri, parlament üzvləri və ictimai xadimlər Ermənistan ordusunun tam məğlubiyyəti və Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə nəticələnmiş 44 günlük müharibə ərzində bizi dəstəklədilər".

Görüşdə dövlətimizin başçısı ölkələrimizin beynəlxalq təşkilatlar, o cümlədən Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində çox sıx əməkdaşlıq etdiyini diqqətə çatdırıb. Prezident İlham Əliyev Pakistanın İslam Əməkdaşlıq Təşkilatının sədri kimi Azərbaycanın təşəbbüslərinə verdiyi dəstəyi yüksək qiymətləndirdiyini qeyd edib. Dövlətimizin başçısı Azərbaycan, Pakistan və Türkiyənin üçtərəfli formatda da çox sıx əməkdaşlıq etdiyini vurğulayıb.

### PAKİSTAN AZƏRBAYCANA YAXIN DOST VƏ QARDAŞ ÖLKƏ KİMİ TARİXƏ DÜŞDÜ

Pakistanın Baş naziri Ermənistan silahlı qüvvələrinin dövlət sərhədində törətdiyi genişmiqyaslı hərbi təxribatların qarşısının alınması zamanı həlak olan şəhidlərimizlə bağlı Prezident İlham Əliyevə və Azərbaycan xalqına başsağlığı verib. Baş nazir Şahbaz Şərif Pakistanda baş verən və çoxsaylı insan təlefatı ilə nəticələnən daşqınlar zamanı Prezident İlham Əliyevin göstərdiyi mənəvi, maddi və dostluq dəstəyinin yüksək qiymətləndirildiyini bildirib. "Pakistan və Azərbaycan bir bədəndə olan iki ürəkdir. Azərbaycan ilə Pakistan arasında qardaşlıq və dostluq əlaqələri var. Biz Azərbaycanın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qətiyyətlə dəstəkləmişik və bundan sonra da dəstəkləyəcəyik", - deyə Pakistanın Baş naziri qeyd edib.

Azərbaycan Prezidenti onu da bildirib ki, Azərbaycan da Cəmmu və Kəşmir məsələsində Pakistanın haqlı mövqeyini dəstəkləyir və bu məsələdə Pakistan ilə həmrəydir. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində Cəmmu və Kəşmir məsələsi üzrə kontakt qrupun üzvüdür.

Söhbət zamanı ölkələrimiz arasında nəqliyyat, logistika, kənd təsərrüfatı, energetika, investisiyaların təşviqi, iqtisadi-ticari əlaqələrin genişləndirilməsi məsələləri ilə bağlı müzakirələr aparılıb və aidiyyəti dövlət qurumlarına tapşırıqlar verilib.

Xatırladaq ki, paytaxt Bakıda Azərbaycan, Türkiyə və Pakistanın xüsusi təyinatlı qüvvələrinin nümayəndələrinin iştirakı ilə keçirilən "Üç qardaş - 2021" beynəlxalq təlimi bu münasibətlərin təməlinin möhkəmliyini göstərdi. Bu gün artıq Pakistan da Azərbaycana yaxın dost və qardaş ölkələr kimi tarixə düşüb. Bu əlaqələrin mərkəzində dayanan isə xalqlarımızın bir-birinə sıx şəkildə bağlı olmalarıdır.

Qardaş ölkə Azərbaycana dəstək vermək və həmrəylik nümayiş etdirməklə Ermənistanı bir dövlət kimi tanımayıb. 44 günlük Vətən müharibəsində qardaş Türkiyə ilə birlikdə Pakistanın Azərbaycanın yanında olması Azərbaycan-Türkiyə-Pakistan qardaşlığını bütün dünyaya nümayiş etdirdi. İşğaldan azad olunan ərazilərdə bütün şəhər və ölkə boyu Azərbaycanla yanaşı, Türkiyə və Pakistan bayraqlarının olması təəccüblü deyil.

***Nəzakət ƏLƏDDİNQIZI***

***Bəli, qüdrətli ordu, güclü iqtisadiyyat, beynəlxalq arenada önəmli mövqe, müstəqil xarici siyasət və qalib ölkə. Bu, öz tarixinin ən güclü dövrünü yaşayan Azərbaycanın bugünkü reallıqlarıdır. Son 19 il əvvəl Azərbaycan xalqı müdrik seçim edərək, Ulu Öndərimizin siyasi kursuna və dahi şəxsiyyətin layiqli davamçısı İlham Əliyevə səs verdi. Ötən hər il xalqın öz seçimində yanılmadığını təsdiqləməkdədir. Yeni əsrin yeni lideri İlham Əliyev bu 19 ildə Azərbaycanı həm siyasi-iqtisadi, həm də hərbi cəhətdən qüdrətli, dünyada sözükeçən dövlətə çevirdi. Bu güc sayəsində Qarabağın 30 il davam edən işğalına 44 gündə son qoymaq mümkün oldu. Biz həqiqətən tarixi günlər yaşadıq və yaşayırıq.***




# 44 gündə mümkünsüzü mümkün edən GÜCLÜ AZƏRBAYCAN ORDUSU!

***İLHAM ƏLİYEV:** "Mən Prezident kimi öz səlahiyyətlərimi icra etməyə başlayan zaman demişdim ki, mənim üçün Prezident və Ali Baş Komandan kimi birinci vəzifə ordu quruculuğudur"*

Xalqımıza Qarabağ Zəfərini bəxş edən, bizi qalib xalqa çevirən Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin "güclü dövlət" konsepsiyanın əsasını təşkil edən üç mühüm güc - iqtisadi, siyasi, hərbi güc və onların vəhdəti Azərbaycanın Vətən müharibəsinin başlıca hərəkətverici qüvvəsi oldu. Bu gün dünyanın harasında olmasından, harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı öz dövləti, onun zəfərləri ilə haqlı olaraq qürur duyur, azərbaycanlı olmağı ilə fəxr edir. Bu xoşbəxtliyi, bu qüruru bizə Ali Baş Komandan İlham Əliyevin diplomatik və "Dəmir yumruq" siyasəti nəticəsində 44 gündə mümkünsüzü mümkün edən Güclü Azərbaycan Ordusu yaşatdı. Və qətiyyətli Lider, müzəffər Ordu, yenilməz xalq birliyi Azərbaycanın yeni və möhtəşəm tarixini yaratdı. Müzəffər Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin "N" saylı hərbi hissəsinin şəxsi heyəti qarşısında çıxışı zamanı söyləyib ki, bütün bu qələbələr, məhz ordumuzun gücü ilə əldə etdik: "Nəyin hesabına? Danışıqlar hesabına yox! Güc hesabına, qüdrət hesabına, Azərbaycan Ordusunun Zəfəri hesabına! Biz güclü ordu yaratmışıq. Bundan sonra da bu istiqamətdə işlər aparılacaq", - deyən dövlət başçısı söyləyib ki, Prezident kimi öz səlahiyyətlərimi icra etməyə başlayandan birinci vəzifə ordu quruculuğunu gücləndirmək olub: "Mən Prezident kimi öz səlahiyyətlərimi icra etməyə başlayan zaman demişdim ki, mənim üçün Prezident və Ali Baş Komandan kimi birinci vəzifə ordu quruculuğudur. Çünki torpaqlarımız işğal altındadır, danışıqlara ümidlərimiz tükənib və güc yolu ilə biz bu məsələni həll etməliyik. Bunu illər boyu bəyan edirdim, çalışırdım Ermənistan rəhbərliyi, nəhayət anlasın ki, Azərbaycan xalqı və Azərbaycan rəhbərliyi, Azərbaycan Ordusu bu işğalla heç vaxt barışmayacaq. Bunu rəsmən bəyan edirdim ki, nəyin bahasına olursa-olsun, torpaqlarımızı düşmənin əlindən alacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik. Belə də oldu".

Azərbaycan Silahlı Qüvvələrini və ölkəmizin müdafiə qabiliyyətini daha da gücləndirəcəyik

"Biz, qarşıdan gələn dövrdə də müasir silah, hərbi texnika, döyüş sursatı, arxa xidmət əmlakı və digər maddi vasitələrin istehsalına xüsusi diqqət yetirməklə Azərbaycan Silahlı Qüvvələrini və ölkəmizin müdafiə qabiliyyətini daha da gücləndirəcəyik". Bu, Prezident İlham Əliyevin sentyabrın 6-də keçirilən Dördüncü Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinin iştirakçılarına müraciətində öz əksini tapıb. "Əminəm ki, "ADEX-2022" sərgisi faydalı təcrübə mübadiləsinin aparılmasına, yeni əməkdaşlıq əlaqələrinin qurulmasına əlverişli imkan yaradacaq və Azərbaycanın müdafiə sənayesinin elmi-texnoloji potensialının artırılmasına öz müsbət töhfəsini verəcəkdir", - dövlət başçısı bildirib. Prezident İlham Əliyevin Dördüncü Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinin iştirakçılarına məktubunda onu da vurğulayıb ki, XXI əsrin müharibəsini aparmış Azərbaycan Silahlı Qüvvələrinin döyüş təcrübəsi bu gün inkişaf etmiş ölkələrin hərbi mərkəzlərində diqqətlə öyrənilir: "Son dərəcə çətin relyef şəraitində ən müasir döyüş silahlarını tətbiq etməklə Azərbaycan Silahlı Qüvvələri düşmənin möhkəmləndirilmiş müdafiə xətlərini yarmış və sürətlə irəliləyərək cəmi 44 gün ərzində onu təslim olmağa məcbur etmişdir. Azərbaycanın tarixi qələbəsi göstərdi ki, hərbi sahədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün müasir ordu quruculuğu, ölkənin hərbi qüdrətinin yüksəldilməsi istiqamətində ardıcıl və məqsədyönlü tədbirlərin həyata keçirilməsi son dərəcədə əhəmiyyətlidir".

## Azərbaycan öz Silahlı Qüvvələrinin döyüş qabiliyyətinin artırılmasına xüsusi önəm verir

Azərbaycan Respublikası öz Silahlı Qüvvələrinin döyüş qabiliyyətinin artırılmasına və maddi-texniki bazasının gücləndirilməsinə daim xüsusi önəm verir", - deyən dövlətimizin başçısı bildirib ki, ölkəmiz hərbi-texniki sahədə dünyanın qabaqcıl dövlətləri ilə əməkdaşlığını inkişaf etdirməklə yanaşı, milli müdafiə sənayesi sahəsində də imkanlarını genişləndirir: "Hazırda Azərbaycan aviasiya, naviqasiya, cihazqayırma və digər istiqamətlər üzrə dünyanın 50-dən çox ölkəsinin aparıcı şirkətləri ilə sıx əməkdaşlıq edir, ölkəmizin müdafiə sənayesi müəssisələrində istehsal olunan məmulatların həcmi ildən-ilə artır".Göründüyü kimi, Azərbaycan Prezidentinin bu fikirləri güclü və xarizmatik dövlət başçısı və qətiyyətli lider olduğunun bir daha göstərin. Çünki tarix boyu həmişə belə olub ki, sərkərdəsi güclü olan ordu qalib olub, eynilə biz bu tarixi canlı olaraq yaşadıq. Xalq və ordu birliyi bütün dünya xalqlarına bir nümunə oldu. Biz ilk dəfədir Silahlı Qüvvələr Gününü müzəffər ordu kimi, qalib xalq kimi qeyd edirik. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə "Dəmir yumruq" əməliyyatı ilə 44 gün davam edən Vətən Müharibəsində Azərbaycan Ordusu yüksək döyüş bacarığını nümayiş etdirərək bütün dünyaya öz gücünü, qüdrətini göstərdi. Ermənistan və havadarları tərəfindən işğal olunmuş torpaqlarımız əsgər və zabitlərimizin qanı və canı bahasına azad edildi. Bu, Prezident İlham Əliyev tərəfindən son 19 il ərzində həyata keçirilən "Güclü ordu - güclü dövlət" strategiyasının və "Dəmir yumruq" siyasətinin nəticəsidir.

## Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü, ordumuzun peşəkarlığını, hərbçilərimizin cəsarətini, qəhrəmanlığını göstərdi

Bəli, Azərbaycan Prezidenti ölkənin ərazi bütövlüyünün bərpa olunacağı və bunun istənilən yolla təmin ediləcəyinə dair vədinin 44 günlük Vətən müharibəsində yerinə yetirilməsi bir daha bu sözləri təsdiqlədi. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin daxili siyasəti Azərbaycanın dinamik iqtisadi inkişafına, xarici siyasəti torpaqlarımızın işğaldan azad edilməsinə və dünya dövlətlərinin ədaləti dəstəkləməsinə, işğalçının işğalçı kimi tanınmasına istiqamətləndi. Vətən müharibəsində qazanılan şanlı qələbə sayəsində ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörən siyasətinin əyani şəkildə sübutudur. Müharibənin elə ilk günlərindən Silahlı Qüvvələrimiz döyüş meydanında öz qəhrəmanlıqlarını sərgilədi. Prezident, Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində bildirdi ki, Şuşanın azad edilməsi dünya hərb tarixində xüsusi yer tutatacaq: "Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi. Ordumuzun peşəkarlığını, hərbçilərimizin cəsarətini, qəhrəmanlığını göstərdi. Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaq. Çünki bu əməliyyatı bizim qəhrəman hərbçilərimiz dağlardan, meşələrdən, cığırlardan keçərək yalnız yüngül silahlarla silahlanmış şəkildə azad ediblər. Şuşanın işğaldan azad edilməsi bizim şanlı qələbəmizdir". Bəli, Azərbaycan əsgəri əsl qəhrəmanlıq, mərdlik, şücaət, rəşadət nümunəsi göstərdi. Düşmənin 30 il ərzində qurduğu, milyonlarla vəsait sərf etdiyi nəhəng istehkamlar qısa müddətdə darmadağın edildi, müzəffər ordumuzun tətbiq etdiyi savaş strategiyası müasir hərb tarixinə yeni örnək oldu. Belə vəziyyətdə Ermənistanın qarşısında yalnız iki yoldan birini seçmək qalırdı. Ya Ermənistan ordusunun son tör-töküntüləri də döyüş meydanında son nəfərinə qədər məhv ediləcəkdi, ya da "ağ bayraq" qaldırmalı idi.

## Ermənistanın kapitulyasiya aktına imza atmaq mənim həyatımda ən qürurlu hadisədir

Bəli, Paşinyan hakimiyyəti bu reallığı nəhayət ki, qəbul etdi və noyabrın 10-da Ermənistan "ağ bayraq" qaldırdı, kapitulyasiya bəyannaməsini imzaladı. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Ermənistanın kapitulyasiya aktına imza atmasını həyatının ən qürurlu hadisəsəi hesab etdiyini bildirdi: "Bu sevinci bizə bəxş edən bizim övladlarımız, əsgər və zabitlərimiz olub. Bütün Silahlı Qüvvələr bu Qələbənin əldə olunmasında öz dəyərli töhfəsini verdi və cəmi 44 gün ərzində tarixi Zəfər əldə olundu, düşmən bizim qabağımızda diz çökdü və məcbur oldu öz əli ilə kapitulyasiya aktına imza atdı: "Bu, tariximizin və mənim həyatımda bəlkə də ən yaddaqalan, ən sevincli, ən qürurlu anlardan biridir, bəlkə də birincisidir. Ermənistanın kapitulyasiya aktına imza atmaq mənim həyatımda ən qürurlu hadisədir".

Göründüyü kimi, Paşinyan Brüsseldə razılaşdırılan Zəngəzur dəhlizi ilə bağlı vədinə növbəti dəfə xilaf çıxmışdı. Bir sözlə, son təxribatçı mövqelər isə Paşinyanın əsl sifətini göstərdi. Lakin Ermənistan tərəfi, o cümlədən başıpozuq revanşist qüvvələr hələ də anlamırlar ki, onlar törətdikləri təxribatlarla heç nəyə nail ola bilməyəcəklər. Çünki onların qarşısında güclü və yenilməz, iki il öncə militarist Ermənistanın təcavüzkar ordusunu məhv etmiş Güclü, Müzəffər bir Ordu dayanır. Bəli, budur Azərbaycan Prezidenti, Ali Baş Komandanımız İlham Əliyevin proqmatik siyasəti! Budur, xalq-iqtidar-ordu birliyi. Xalq-Prezident və Ordu birliyi və həmrəyliyi. Bəli, bu gün qürurla bütün dünyada sözümüz keçərli, başımız ucadır. Bu, Müzəffər Azərbaycan ordusunun gücüdür, potensialıdır. Bu həmrəylikdən "Dəmir yumruğ"a gedən, güclənən, möhkəmlənən Qalib Azərbaycan Ordusudur!

***RƏFİQƏ KAMALQIZI***

**ABŞ Konqresinin Nümayəndələr palatasının rəhbəri Nensi Pelosinin Ermənistana səfəri və orada açıq-aşkar Azərbaycan əleyhinə səsləndirdiyi bəyanatları özündə bir sıra düşündürücü məqamları ehtiva etdi. Fəqət, bu barədə tam mövzuya keçənə qədər digər mühüm xatırlatmaları etmək də yerinə düşərdi.**

# "Nensi nənənin" təxribatçı nağılları: kimlər məsuliyyət daşıyır?

## *Yaxud, hədəf Cənubi Qafqaz və onun timsalında güclü Azərbaycandır...*






Azərbaycan uzun onilliklər boyu ATƏT-in Minsk qrupuna (MQ) həmsədrlik edən ölkələr qarşısında BMT-nin çıxardığı dörd qətnamənin yerinə yetirilməsi barədə tələblərini irəli sürürü. Lakin fakt budur ki, qeyd edilənlə paralel olaraq MQ-nun iki əsas həmsədr ölkələri - ABŞ və Fransa açıq-aşkar Ermənistanın davam etdirdiyi işğalçılıq və təcavüzkar siyasətinə bu və ya başqa donlar geyindirməklə açıq-aşkar ikili standartlarını ortaya qoyur, torpaqlarımızın işğaldan azad olunması istiqamətində ümumiyyətlə, heç bir əməli fəaliyyət göstərmir, əksinə, ötən müddət ərzində qəbul edilmiş bütün prinsip və qərarların kölgədə qalması üçün daha çox əl-ayağa düşürdülər.

Təbii ki, Azərbaycan tərəfi dəfələrlə (!) bu kimi fəaliyyətsizlikləri önə sürməsi ilə yanaşı, son məqamda münaqişənin müharibə yolu ilə həll ediləcəyi xəbərdarlıqlarını da önə sürdü. Ancaq bu qurum, daha dəqiq desək, MQ həmsədrləri rəsmi Bakının xəbərdarlıqlarını qulaq ardına vururdular. Nəticə isə bəllidir - işğalçı Ermənistan 44 günlük müharibədə layiqli cəzasını aldı və işğal altından çıxarılan torpaqlarımızda Azərbaycan bayrağı dalğalanmağa başladı. Bu isə söz yox ki bəzi dairələri, xüsusilə ATƏT MQ-na həmsədrlik edən iki digər ölkəni - ABŞ-ı və Fransanı ciddi şəkildə narahat etməyə başlatdı. Yəni həmin reallıq məhz bu vasitə ilə regiona təsir edəcəklərini düşünən ermənipərəst dairələrin - ABŞ və Fransa dairələrinin həmin imkanlarını əllərindən alınmasını sübuta yetirdi, MQ-na isə ümumiyyətlə ehtiyac qalmadı. Əbəs deyil ki, artıq adıçəkilən "qurum" həm də haqlı olaraq "ölü qurum" kimi təqdim edilməkdədir.

### Azərbaycan xalqı ABŞ siyasi dairələrinin, xüsusilə Demokratlar Partiyasında təmsil olunan ermənipərəst senator və konqresmenlərin zaman-zaman tətbiq etdiyi naqis siyasətlərinin çoxsaylı şahididir

İndi isə gələk Nensi Pelosinin səsli-küylü İrəvan səfərinə. Sirr deyil ki, bu yaşlı siyasətçi xanım heç də Ermənistan hakimiyyətinin qara gözünə aşiq deyil. Fakt budur ki, Nensi Pelosi öz siyasi ambisiyaları və lobbi maraqlarına xidmət etmək üçün həmin səfərini reallaşdırıb.

Üstəlik, onun bədnam niyyətli səfəri ABŞ-ın Azərbaycan ictimai rəyində onsuz da aşağı olan nüfuzunu daha da zəifləməsinə səbəblər yaradıb. Daha doğrusu, Azərbaycan xalqı ABŞ siyasi dairələrinin, xüsusilə



Demokratlar Partiyasında təmsil olunan ermənipərəst senator və konqresmenlərin zaman-zaman tətbiq etdiyi naqis siyasətlərinin çoxsaylı şahididir. Təkcə 907-ci düzəlişin tətbiqi faktını xatırlatmaq yetər...

Əlavə olaraq isə biz bu məsələdə, yəni Pelosinin İrəvan səfərində onun bir müddət əvvəl Çin-Tayvan gərginliyində qızışdırıcı mövqe tutması ilə paralelliklər göstərə bilərik. Məhz Nensi Pelosinin Çinə provokativ və qızışdırıcı səfəri və həmin regionda vəziyyəti gərginləşdirməsi də İrəvan səfəri ilə eyniləşdirilir - bu, açıq-aydın təxribatdır, özü də regional sabitliyin əldə olunmasına (!) qarşı və diplomatiyaya yaraşmayan bir olaydır. Sabah isə eyni halın Kubaya, Vyetnama, Türkiyəyə, digər müsəlman ölkələrinə, Rusiyaya - ümumiyyətlə, ABŞ-ın maraqlarından kənar olan istənilən ölkələrə qarşı tətbiq olunmayacağına kimsə zəmanət verə bilməz. Hələlik isə hədəf Cənubi Qafqaz və onun timsalında güclü Azərbaycandır.

### ABŞ siyasi dairələri Cənubi Qafqaz regionunda itirilmiş nüfuzlarını bərpa etmək niyyətini güdür, bunun üçün isə onlara məhz erməni kartından istifadə etmək ən rahat işdir

Maraqlıdır ki, ABŞ siyasi dairələri bunu guya Cənubi Qafqazda "sabitliyin" əldə olunması cəhdləri ilə əlaqələndirməyə çalışırlar. Halbuki ABŞ siyasi dairələri açıq-aşkar Cənubi Qafqaz regionunda itirilmiş nüfuzlarını bərpa etmək niyyətini güdür, bunun üçün isə onlara məhz erməni kartından istifadə etmək necə deyərlər, ən rahat işdir.

Üstəlik, ABŞ-ın məhz Ermənistandakı Soros uşaqları üzərindən, yəni Nikol Paşinyan iqtidarı vasitəsi ilə regiona müdaxilə siyasətini MQ-nu bərpa etmək cəhdləri də belə bir nəticələrə gəlməyə zəmin yaradır. Amma bəri başdan deyək ki, bu da çox uğursuz, məntiqsiz və yersiz strategiyadır.

### Sübuta yetirilməyən bir "soyqırımı" abidəsi önündə "ağlaşma" qurmağın arxasında isə daha nələr dayanmır ki..?!

Eyni zamanda, istəsək də, istəməsək də biz bu kimi nüanslarda "xristian klubu" anlayışını da unutmamalıyıq. Hətta bir az da irəliyə gedərək, Nensi Pelosinin qondarma erməni soyqırımı abidəsi önündə və yüksək professionallıq tələbləri kontekstində zorla çıxardığı "göz yaşları" konteksti ilə izah edə bilərik. Sübuta yetirilməyən bir "soyqırımı" abidəsi önündə "ağlaşma" qurmağın arxasında isə daha nələr dayanmır ki..?!

Baxın, Ermənistan Azərbaycan torpaqlarını uzun illər əsarətdə saxlayıb, on minlərlə soydaşlarımız öldürülüb, terrora məruz qalıb, vandallıqlar törədib, tarixi və dini abidələrimiz yerlə-yeksan olunub, çapılıb, talanıb. Bu faktların heç biri Nensi Pelosi üçün təsir göstərmir, yəni o, bundan təsirlənib ağlamır, ümumiyyətlə isə vecinə belə almır!

Amma mövzu təcavüzkar Ermənistana gəldikdə artıq hər şey 180 dərəcədə dəyişilir və səlibçilik funksiyasının mexanizmləri dərhal işə düşməyə başlayır. Maraqlıdır, Nensi Pelosi "Azərbaycanın vandallıqları" barədə dəm vurarkən ABŞ-ın ölkəmizdəki səfirinin nəyə görə Şuşada keçirilən mühüm tədbirə qatılmamasını xatırlamadı? Məlumdur..!



### Reallığa qalanda bu kimi əməllər birbaşa körpülərin yandırılması deməkdir

Eləcə də eyni fikirləri və düşüncələri bilavasitə Fransanın da üzərinə qoya bilərik. Təkcə ardıcıllığa nəzər salaq. Pelosinin İrəvan səfəri Fransanın BMT TŞ-də sərhəd toqquşmasını gündəliyə gətirməsi ilə üst-üstə düşür (?!). Təsadüfdürmü, əlbəttə ki, bunu düşünmək sadəcə ağılsızlıq olardı!!!

Bütün bunlardan sonra Azərbaycan dövləti və xalqı ABŞ-ın, yaxud Fransanın hansı sözlərinə, vədlərinə, təşəbbüslərinə və daha nələrinə etimad və etibar göstərməlidir? Reallığa qalanda bu kimi əməllər birbaşa körpülərin yandırılması deməkdir və körpüləri də məhz və məhz (!) Nensi Pelosi, onun hökuməti və Fransa yandırdı, üstəlik odun da üzərinə benzin səpildi ki, gur yansın, külü çıxana qədər.

### ABŞ və Fransa Aİ Şurasının prezidenti Şarl Mişelin fəaliyyətinə geosiyasi qısqanclıqla yanaşdılar

Suallar çoxdur və onlardan birini də önə sürə bilərik. Misal üçün, Fransa və ABŞ bu kimi faydasız və provokativ addımlar atmaqdansa, vəziyyətin gərginləşməsinə şəraitlər yaratmaqdansa hansı səbəblərdən Brüssel gündəliyini dəstəkləməlidirlər? Axı müxtəlif diplomatik təzyiqlər və Azərbaycanın siyasi iradəsi hesabına demək olar ki, sülhün əldə olunması üçün cəmi bir neçə addımlar qalmışdı.

Lakin Fransa və ABŞ Ermənistanı qızışdırdı və sülh gündəliyinin irəliləməsi ehtimallarını sıfır həddinə çatdırdılar. Budurmu onların "humanizm və demokratik dəyərlər prinsipləri"?

Gerçəklik budur ki, nəzarətin onların əllərindən çıxdıqlarını görən Amerika və fransız siyasi dairələri hətta Avropa İttifaqı kimi nüfuzlu qurumun sülh təşəbbüslərinə qarşı çıxmağa başladılar, Aİ Şurasının prezidenti Şarl Mişelin fəaliyyətinə geosiyasi qısqanclıqla yanaşdılar. Bəs bu ölkələr istədiklərinə nail olub-olmayacaqlarının fərqinə varıblarmı? Fakt budur ki, ABŞ və Fransa bir tərəfdən MQ-nu öz təbirlərincə "canlandırmağa" çalışır, digər tərəfdən isə Ermənistana əsassız ümidlər verirlər. Sübut və isbat ondan ibarətdir ki, elə də uzaqda olmayan 31 avqust tarixindəki Brüssel görüşündə real nəticələrin olunmaması məntiqli siyasətin nəticəsi idi. İndi isə həmin siyasəti Ermənistanı cəsarətləndirən başqa bir "siyasət" əvəzləməyə başladı.

### "Nensi nənə" daha nələri bilməlidir?

Nəticədə isə bundan cəsarətlənən Ermənistan sülh gündəliyindən imtina etdi və növbəti dəfə təxribatlara əl atdı. Ermənistanın hərbi-siyasi rəhbərliyi öncədən planlaşdırdığı həmin yanlış addımı ilə artıq özü-özünə ölüm hökmünü kəsmiş oldu. İrəvanın isə son və bundan sonra heç vaxt əldə edə bilməyəcəyi şanslı qalır: bu ölkənin rəhbərliyi anlamalıdır ki, hal-hazırda siyasi-diplomatik təxribatlara alternativ gündəlik yaratmaq lazım deyil. Yegənə olan çıxış variantı isə belədir - Brüssel sülh gündəliyi dəstəklənməlidir və xüsusilə, Ermənistan və Azərbaycan arasında sülh saziși imzalanmalıdır, digər bütün fəaliyyətlər də bilavasitə həmin istiqamətə tərəf yönəlməlidir.

Qaldı ki, siyasi çevrələrdə "qoca Nensi nənə" adlandırılan Pelosinin Azərbaycanı Ermənistan ərazisinə müdaxilədə əsassız ittiham etməsinə. "Nensi nənə" bilməlidir ki, birincisi, Ermənistan hələ Qazaxın yeddi kəndini, üstəlik Naxçıvandakı Arazdəyəni işğal altında saxlayır. İkincisi, Ermənistan Paşinyanın dili ilə dedi ki, bu kəndlərin Azərbaycana mənsubluğu sual altındadır və onların hüquqi statusu yoxdur. Deməli, bütün sərhədyanı zona şərtidir və sual altındadır. Ona görə də hələ hara isə kimin ərazisindədir mövzusu ayrıca müzakirə olunmalıdır və müzakirə üçün də sülhə doğru təşəbbüslərə dəstək göstərmək gərəkdir. Yoxdursa, yaxud olmayacaqsa, onda sonradan baş verə biləcək hadisələrin bütün məsuliyyəti başda Ermənistanın hərbi-siyasi dairələri olmaqla onun ABŞ və Fransa kimi qızışdırıcı, təxribatçı havadarları daşıyacaqlar!

***Rövşən RƏSULOV***

ANALİTİK ÖZƏL

*Müxtəlif qitələrdə, uzaq və yaxın ölkələrdə baş verən hadisələrin fonunda deyə bilərik ki, münaqişə ocaqlarının alovlanması artıq insanları birliyə dəvət edir: sülhə çağırış. Sülh bütövlükdə dünya insanın arzuladığı nemətdir, dəyərdir. Sülh olan yerdə əmin-amanlıqdan, inkişafdan danışa bilərik. Sülh insanların azadlıq arzusudur. Bir şeirin dili ilə desək, sülhə gəlin ey insanlar, yoxsa dünya məhv olar.*

# Müasir və modernləşən sülhməramlı Azərbaycan

TƏHLİL



Bəli, dünya insanı sülh istəyir, gözəl, firavan həyat, qansız-qadasız bir dünya. Dövlətlərin bir-biri ilə münasibətlərinin qeyri-zorakılıq şəraitində qurması insanlar dinindən, irqindən asılı olmayaraq ədalətli bir dünaya yaşamasına imkanlar yaradır. Bu məfhumun anlamı konkret olsa da geniş bir fikri, bütün dünyanı axarına salıb işıqlı bir aləmdə yaşamasına yollar açır. Mən sülh istəyirəm, hər kəs bunu qətiyyətlə deməlidir. Sülh şəraitini pozan müharibələrin ağrı-acısını milyonlarla insanlar dadıb. Sülhsüz nə ictimai, nə də şəxsi təhlükəsizlik mümkün deyil.İnsanlar bəşəri rəmzə çevrilən sülhə can atır. Ona görə də dünya ölkələrinin yekdil qərarı ilə BMT 1981-ci il 21 sentyabrı Beynəlxalq Sülh Günü kimi qeyd olunması barədə qərar qəbul edib. BMT həmin günü dünyanın bütün qaynar nöqtələrində atəşkəsin gözlənilməsini tələb edir. Bu bayram BMT Baş Assambleyasının 1981-ci il 30 noyabr tarixli qərarı ilə bütün dünya tərəfindən 1982-ci ildən qeyd olunmağa başlayıb. Həmin vaxtdan etibarən, hər il BMT-nin Baş katibi dünya xalqlarına müraciət edir. 1954-cü ildə BMT-nin Nyu-Yorkdakı qərargahının həyətində Yaponiya tərəfindən bağışlanmış "Sülh Zəngi" quraşdırılıb. Bu zəngin gövdəsi dünyanın bütün qitələrini təmsil edən 60 ölkənin uşaqları tərəfindən toplanaraq, Xirosima və Naqasaki faciələrinin baş verdiyi Yaponiyaya göndərilən metal pulların, yüzlərlə döyüşçüyə məxsus orden və medalların əritisindən hazırlanıb. Bu gün hər il məhz "Sülh Zəngi"nin çalınması ilə başlayır. Sülh naminə aparılan fəaliyyət həyati əhəmiyyət kəsb etsə də, təəssüflər olsun ki, heç də hər yerdə qorunmur, müdafiə edilmir, zorakılıqlar, milli münaqişələr daha da qloballaşır, fiziki coğrafiyası genişlənir. Qloballaşan dünyada sülhün olması və qorunması vacib hesab olunur. Sülh bugünki dünyanın, zamanın tələbinə çevrilib. Son vaxtlar qlobal və regional güclər arasında artan ixtilaflar, beynəlxalq münasibətlər sistemində davam edən gərginliklər məhz sülhün bərqərar olunmasını tələb edir. Sülh əlbəttə ki, dövlətlərin bir-biri ilə münasibətlərində anlaşma və qarşılıqlı münasibətlər fonunda yaranır və dərinləşir. Müharibələr, zorakılıq, dini zəmində qarşıdurmalar, kəskin münaqişələrin yaranması sülhün pozulmasına rəvac verir. Bütün dünyada və bölgədə gedən müxtəlif mənfi proseslərə baxmayaraq, Azərbaycanın hərtərəfli və dinamik şəkildə inkişafı, müstəqil, çoxşaxəli və milli maraqlara söykənən xarici siyasət kursu onun Cənubi Qafqaz regionunun inkişaf etmiş ölkəsi olaraq qalmasını təmin edib. Bu baxımdan, müasir dövrdə Azərbaycan yalnız regionda gedən proseslərə deyil, eyni zamanda, beynəlxalq aləmdə cərəyan edən proseslərə təsir göstərmək imkanı qazanaraq, sülhsevər siyasətini həyata keçirir.

## SÜLH BƏŞƏRİYYƏTİN ƏN ÇOX EHTİYAC DUYDUĞU VASİTƏDİR

Azərbaycan regionun yeganə ölkəsidir ki, düşünülmüş və milli maraqlara söykənən xarici siyasəti ilə regional təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl və sistemli addımlar atır. Hazırda Azərbaycan dövlətinin həyata keçirdiyi enerji layihələri, regional inteqrasiyaya xidmət edən əməkdaşlıq formatları Cənubi Qafqazda sabitliyin təmin edilməsində mühüm rol oynayır. Bununla yanaşı, Azərbaycan dünyada sülhyaratma prosesində fəal iştirak edir, səmərəli təklif və təşəbbüslərlə çıxış edir, sülhün və təhlükəsizliyin möhkəmlənməsinə dəyərli töhfələr verir. Azərbaycan Prezident İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, Azərbaycan bölgədə sülh və sabitliyin təmin olunmasına sadiqdir. Əlbəttə ki, bəşəriyyətin ehtiyac duyduğu ən qiymətli vasitə sülhdür. Əsrlər boyu bəşər övladı sülh şəraitində yaşayıb-yaratmaq, dünya xalqları ilə əmin-amanlıq şəraitində əlaqə qurmaq, əməkdaşlıq etmək arzusunda olub və bu gün də belədir. Müasir və modernləşən Azərbaycan bu gün sülhməramlı niyyəti ilə dünyaya nümunədir. Ölkəmizdə hökm sürən əmin-amanlıq mühiti, sülh və həmrəylik, birgəyaşayışı tolerantlıq mühiti bəşəriyyətə sülh şəraitində yaşamaq üçün bir mesajdır. Sülh təmin olunmadığı halda insanlar qorxu və vahimə içərisində psixoloji gərginliklər yaşamış olurlar. Azərbaycan neçə-neçə qanlı müharibələrin şahidi olub. Yüzlərlə şəhid verib bu müqəddəs torpaq. Müharibə təkcə zirehli tanklarla, silah sursatla, mərmi ilə əsgərlərin üzərinə hücum etmək deyil, müharibə həm də günahsız insanların qanlarını axıtmaq, indiyədək qurulanları, tikilənləri bir raket zərbəsi, top mərmisi ilə dağıtmaq deməkdir. Necə ki, 44 günlük Vətən müharibəsində Bərdəmiz, Gəncəmiz erməni təcavüzkarlarının təcavüzünə tuş gəldi. Uzun illər idi ki, Ermənistan-Azərbaycan münaqişəsi həll olunmamış qalırdı. Dünyanın ən tolerant, sülhsevər xalqı olan Azərbaycan Ermənistanın təcavüzünün ağrı-acısını yaşayırdı. 30 ilə yaxın işğalda olan torpaqlarını azad etmək məqsədi ilə sülh danışıqları aparsa da, bu nəticəsiz qaldı. Beynəlxalq vasitəçilərin apardıqları sülh danışıqlarının səmərə verməməsi regionda təhlükəsizliyin təminatına əngəl yaratmaqda idi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin beynəlxalq tribunalardan respublikamızın münaqişənin dinc vasitələrlə, beynəlxalq norma və prinsiplər əsasında, sülh yolu ilə həllinə tərəfdar olduğunu dəfələrlə bildirsə də, təcavüzkar Ermənistan tamamilə bunun əksini göstərirdi. Ermənistan, nəinki atəşkəsə əməl etmir, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamənin tələblərini kobud şəkildə pozmaqda davam edirdi. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqın sülh arzusunu ifadə edərək, münaqişənin sülh yolu ilə, qan tökülmədən və beynəlxalq hüquq çərçivəsində həlli istiqamətində əməli işlər görsə də, Ermənistan çirkin niyyətindən əl çəkmədi. Nəhayət, Azərbaycan 44 günlük Vətən müharibəsində torpaqlarını işğaldan azad etdi. Tarixi ədalət bərpa olundu. Bu gün dünyada sülhə çağırışlar ediriksə, onda dinc sakinlərin - qocaların, qadınların və körpə uşaqların qətlə yetirilməsinə biganəlik göstərilməməlidir.

## "ÖLKƏMİZDƏ DİNİ-MİLLİ ZƏMİNDƏ HEÇ BİR QARŞIDURMA, YAXUD DA ANLAŞILMAZLIQ OLMAMIŞDIR"

Sülh Azərbaycanda dövlət siyasətinin tərkib hissəsidir və bu siyasətin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Hazırda Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən ardıcıl surətdə davam etdirilir, bu siyasət Azərbaycanın beynəlxalq aləmdə imicini artırır. Ermənistanla müharibədə minlərlə şəhid verməyimizə və bir milyon qaçqınımızın olmasına, dini abidələrimizin dağılmasına baxmayaraq, erməni kilsəsi hələ də Azərbaycanın paytaxtı Bakının mərkəzindədir. Dünyada baş verən neqativ hadisələr fonunda Azərbaycan digər ölkələrin nümunə götürəcəyi müsbət bir modeldir. Azərbaycanda müxtəlif dinlərə mənsub və fərqli adət-ənənələri olan xalqların nümayəndələri əsrlərdir ki, mehriban və sülh şəraitində birgə yaşayır və yaşayacaqlar. Bəli, bu, Azərbaycan gerçəklikləridir. Azərbaycan dinindən və irqindən asılı olmayaraq, bəşər insanına məhəbbət göstərir.

Azərbaycan rəhbərliyi humanitar fəlakətlərin qarşısının alınması, öz yurdlarından didərgin düşmüş insanlara dünyanın istənilən yerində hərtərəfli dəstək verilməsi istiqamətində təsirli addımlar atıb və bu davam edir. ABŞ-da və Avropa məkanında dözümsüzlük, ekstremizm və ksenofobiya kimi cərəyanların baş qaldırdığı halda, Azərbaycan reallıqları həqiqətən də, öyrəniləcək bir modeldir. Özbaşınalıqlar, insan hüquq və azadlıqlarının kobud şəkildə pozulması, irqi ayrı-seçkilik, digər dövlətlərin daxili işlərinə qarışma və bu kimi demokratiyaya zidd hərəkətlər, artıq sülhə xidmət etmir. Bu dövlətlərin demokratik dəyərlərə sadiqliyi şübhə doğurur. Bu gün Azərbaycan yaşından, irqindən, milliyyətindən, dinindən və cinsindən asılı olmayaraq, hər kəsi sülhə səsləyir. Dünyada analoqu olmayan bir faciəni - Xocalı faciəsini yaşayan bir xalq dünyada belə bir soyqırımının təkrarlanmasını istəmir, torpaq uğrunda şəhidlər verən Azərbaycan dünyaya sülh toxumu səpir. Qoy hər yandan sülh qoxusu gəlsin, sülh və birgəyaşayış təmin olunsun. Münaqişə ocaqlarının alovlanmasının qarşısı alınsın. Buna dünya həmrəylik göstərməlidir. Dünyaya sülh gərəkdir! Vətən müharibəsində əldə etdiyimiz tarixi Zəfərdən sonra regionda yaranmış yeni reallıqlar fonunda sülh və sabitliyin daha etibarlı qarantına çevrilən Azərbaycan uğurlu siyasətinin davam etdirməkdədir.

***Zümrüd BAYRAMOVA***

# Kraliça Elizabetin sərvəti nə qədərdir?

Kraliça Elizabet vəfat etdiyi andan onun böyük oğlu Çarlz taxtla birlikdə kral sərvətinin sahibi oldu. SİA xəbər verir ki, kral ailəsinin nə qədər varlı olması dəqiq məlum deyil.

Britaniyanın "The Sunday Times" qəzetində "Zənginlərin siyahısı" başlıqlı yazıda kraliçanın şəxsi sərvətinin 370 milyon funtsterlinq olması hesablanıb.

Amerikanın "NBC News" telekanalının məlumatına görə, bəzi hesablamalar bu rəqəmin təxminən bir milyard funt sterlinq olduğunu göstərir.

Kral ailəsinin var-dövləti çox gizli saxlanıldığından dəqiq məbləği hesablamaq mümkün deyil. 1993-cü ildə qəbul edilmiş xüsusi qanuna əsasən, krallıq monarxdan monarxa keçirsə onda vərəsəlik vergisi alınmır. Kral sərvətinin qorunması üçün verilmiş xüsusi nizamnaməyə uyğun olaraq



Kral III. Çarlz bu təcrübədən faydalanan ilk monarx olacaq. O, Elizabetdən aldığı mirasa görə miras vergisi ödəməyəcək.

***Qönçə Quliyeva***

# "Azərbaycanlı qardaşlarımızın yanında olmağa davam edəcəyik"

Azərbaycanın işğal altındakı torpaqlarını azad etməsi ilə Cənubi Qafqazda davamlı sülhün və sabitliyin yaranması üçün tarixi fürsət pəncərəsi açılmışdır. Türkiyə olaraq Azərbaycan ilə Ermənistan arasında həyata keçirilən prosesləri dəstəkləyərək bu fürsətin dəyərləndirilməsi üçün çox mühüm addımlar atırıq.

SİA xəbər verir ki, bu fikirləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Nyu-Yorkda BMT Baş Assambleyasının 77-ci sessiyasında çıxışı zamanı bildirib. Son günlər baş verən qarşıdurmalara baxmayaraq iki ölkə arasında ən qısa zamanda hərtərəfli sülhün yaranacağına əminliyini ifadə edən Prezident Rəcəb Tayyib Ərdoğan deyib: "Azərbaycanlı qardaşlarımızın haqlarını və gələcəklərini qurmaq istiqamətində apardıqları mücadilədə daim onların yanında olmağa davam edəcəyik".



Türkiyənin dövlət başçısı diqqətə çatdırıb ki, bölgədəki kommunikasiyaların ən qısa zamanda açılması hər kəsin maraqlarına uyğun olacaq.

# Kadr çatışmazlığını asan yolla necə aradan qaldırmaq lazımdır?

***Azərbaycan iqtisadiyyatının ayrılmaz hissəsi olan kənd təsərrüfatı sürətlə inkişaf edir. Dövlət əhalinin ərzağa olan daxili tələbatını əsasən öz potensialı və imkanları hesabına ödəyə bilməsi üçün regionlarda infrastruktur sahələrinin yaradılması və kənd təsərrüfatının inkişaf etdirilməsi istiqamətində mühüm islahatlar reallaşdırıb və bu proses davam etməkdədir. Kənd təsərrüfatı Azərbaycan iqtisadiyyatında neft və tikinti sahələrindən sonra üçüncü ən iri sahədir. Həmçinin bu sahə iş yerləri ilə təminatda ən böyük pay sahibidir. Prezident İlham Əliyev kənd təsərrüfatının iqtisadiyyatın çox böyük potensiala malik olan nəhəng sektor olduğunu bildirərək, sahənin inkişafını həm də məşğulluğun təmin edilməsi kimi qiymətləndirib. Ölkə başçısı deyib ki, bu sahədə ixrac potensialı kifayət qədər böyükdür: "Əsas qida məhsulları üzrə biz bir, maksimum iki ildən sonra özümüzü tam təmin etmək imkanındayıq".***



Bir çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin kənd yerlərində əhalinin əksəriyyətini sahibkarlar və fermerlər təşkil edir. Bu sahədə məhsuldarlığın artırılmasını, təsərrüfatların genişləndirilməsini və mexanikləşdirilməsini əsas məqsədlər kimi qeyd etmək olar.

Elmi əsaslandırılmış dövlət proqramlarının uğurla həyata keçirilməsi nəticəsində kənd təsərrüfatı və onun emal məhsullarının istehsalı xeyli artmışdır. Regionların sosial-iqtisadi inkişafı sahəsində görülən tədbirlər, həyata keçirilən məqsədyönlü proqramlar kənd yerlərində əhalinin rifah halını xeyli yaxşılaşdırmağa imkan vermişdir.

Qısa müddətdə respublikada fəaliyyət göstərən aqraryönümlü bütün təşkilat və elmi-tədqiqat institutları, həmçinin müvafiq fakültələri olan ali təhsil ocaqları ilə geniş əlaqələr yaradılmışdır. Aqrar elm sahəsində Azərbaycan Milli Elmlər Akademiyasında koordinasiyanın təmin edilməsi istiqamətində daha bir addım atılmışdır. Respublika Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının "Kənd təsərrüfatı bitki və heyvanlarının genetika və seleksiyası problemləri üzrə Elmi Şura"sı və "Torpaq və su ehtiyatlarının idarə edilməsi və ətraf mühitin mühafizəsi problemləri üzrə Elmi Şura"sı yaradıldı və fəaliyyətə başladı. Bütün bu proseslərə baxmayaraq hazırda ölkəmizdə Kənd təsərrüfatı sahəsində mütəxəssis çatışmamazlığı yaşanır.

"Azərbaycanda bəlkə də kifayət qədər kənd təsərrüfatı mütəxəssisi var, sadəcə olaraq onların işə cəlb olunması, qabiliyyətlərinə görə seçilməsi, nazirlikdən tutmuş rayon kənd təsərrüfatı idarələrinə qədər çox az müəssisələrdə rast gəlinir". Bu sözləri SİA-ya açıqlamasında **İqtisadçılar Mərkəzinin sədri Akif Nəsirli** deyib. Ölkədə bütün sahələrdə mütəxəssislər qabiliyyətlərinə görə seçilməlidir. Yaşadığımız ölkədə isə çox vaxtı qohumluq əlaqələrinə, tapşırığa, rüşvətə görə seçilir. Dövlət fermer təsərrüfatıdır və hamı rəhbər vəzifəsinə götürdüyü adamları hansısa başqa bir xətlə götürür. Kənd təsərrüfatı sahəsinə cəlb olunan mütəxəssislərin qabiliyyətinə görə seçim olunmalıdır. Belə olan halda problemin bir hissəsi həll olunacaq və bu günə qədər əmək qabiliyyətinə cəlb olunmuş mütəxəssislər öz töhfələrini vermiş olacaqdır. Gəncə şəhərində Aqrar Universitet fəaliyyət göstərir və həmin universitet mütəmadi olaraq mütəxəssis yetişdirir. Bu gün ali məktəbə, kənd təsərrüfatı sahəsinə lazım olan sifarişləri dövlət verir. Nə qədər aqronom, baytar, mexanizator lazımdır, hansı mütəxəssislərə daha çox ehtiyac duyulursa onların siyahısını hazırlamalıyıq. Bunların hamısını müəyyənləşdirməli və universitetin qəbul planını tələbata uyğun qurmalıyıq. Bununla yanaşı universitetdə təhsilin səviyyəsini yüksəltmək, xarici mütəxəssislər dəvət etmək lazımdır. Dünyadakı mütərəqqi aqrotexniki qaydaları, xidmətləri, Azərbaycana gətirib tətbiq etməliyik. Kənd Təsərrüfatı Universiteti xarici əlaqələrdən istifadə edərək dövlətin dəstəyi ilə öncül ölkələrlə əlaqə saxlamalıdır.



Həmçinin Kənd təsərrüfatı naziri aqronom, onun müavini baytar, digər müavini bitki mühafizəsi üzrə mütəxəssis olmalıdır ki, bu sahədə müəyyən qədər irəliləyişlər olsun. Kənd təsərrüfatı naziri və nazir müavinləri kənd təsərrüfatı mütəxəssisləri olmalıdırlar. Onların bu vəzifə sahibləri olmayınca, mən inanmıram ki hansısa istiqamətdə aqrar sahədə inkişafa nail olsun. Bu gün Azərbaycanda suvarma suyunun çatışmazlığının bir səbəbi mütəxəssislərin az olması və sudan istifadə qaydalarını bilməməsidir. Suyun yuxarı axarında nə qədər sahə varsa, ildə 4/5 dəfə suvarılma əvəzinə 10 dəfə suvarılır. Bu qədər çox suvarmada yerlərdə şoranlaşma yaranır. Şoranlaşma nəticəsində də məhsuldarlıq aşağı düşür. Misal üçün bostan, tərəvəz bitikiləri əkilir və azotu çox verirlər. Azot çox veriləndə məhsul həm dadlı, həm də görkəmli olur, amma onu tərkibində olan maddələr insan orqanizmi üçün zərərlidir və zəhərlənmələr gətirib çıxarır. Kənd təsərrüfatında keyfiyyətli mütəxəssislərin olmaması həm məhsuldarlığı aşağı salır, həm keyfiyyətinə xələl gətirir, həm də insan orqanizminə mənfi təsir göstərməsinə səbəb olur.

## Bəs bu problemi aradan qaldırmaq üçün ilk tədbirləri hansı qurumlar görməlidir?

**Təhsil eksperti Elçin Süleymanov** tələbələrin bu sahəyə marağını artırmaq üçün Aqrar Universitetin atdığı addımlardan danışıb.

Aqrar Universitet Azərbaycanın tarixi universitetlərdən biridir. Xüsusilə Sovet dövründə kənd təsərrüfatı kadrlarının hazırlanması, regionlarda yaxınolması məqsədilə universitet məhz Gəncədə qurulmuşdur. Və təbii ki Sovet dövründə iqtisadiyyatın planlı olması üçün ümumi olaraq kənd təsərrüfatı mütəxəssislərinə ciddi ehtiyac duyulurdu. Müstəqillikdən sonrakı dövrdə qərarlar ləğv olundu və insanlarda belə bir təəssürat yarandı ki, kənd təsərrüfatı sahəsində iş yerləri yoxdur. Bu sahədə olan ixtisaslara sahib olmağa çox pərəstişkarlıq etmirlər. Universitetin giriş balının aşağı olması və yerlərin boş qalması da elə bu səbəbdən baş veridi. Keçid balı digər universitetlərdə 200 olduğu halda, Aqrar Universitetdə 150 bal təşkil edir. Müstəqilliyin ilk illərinə baxanda hazırki illərdə kənd təsərrüfatının inkişafında savadlı mütəxəssislərin, aqronomların, baytarların yüksək maaşlı işlərə cəlb olunma imkanları son illərdə daha çox genişləndirilmişdir. Bu da sahəyə olan marağın artmasına gətirib çıxarır.

ARAŞDIRMA

Son 10 ildə Aqrar Universitetində kifayət qədər müsbət dinamika olub. Yeni binalar, yataqxana, tədris korpusu tikilmişdir. Eyni zamanda təqaüd imkanlarının genişləndirilməsi də yüksək ballı tələbələrin bu universiteti seçməsinə şərait yaradır. Aqrar Universitet həm Türkiyə, həm də digər ölkələrlə əməkdaşlıq proqramları həyata keçirir. Ali məktəbin paytaxtda olmaması, eyni zamanda məzunların işləmək imkanların məhdud olması bu universiteti seçməkdən imtina etməsinə gətirən səbəblərdəndir. Aqrar Universitetdə çox vacib və aktual ixtisaslar olmasına baxmayaraq bir çox gənclər fermer təsərrüfatlarında işləməsini özlərinə yaraşdırmır. Son zamanlarda kənd təsərrüfatına dövlətinin verdiyi dəstək ,investisiyalar universitet məzunlarının iş imkanlarını artırmağa başlamışdır. Qeyd etdiyim kimi savadlı aqronomlara, baytarlara, kənd təsərrüfatı məhsullarının qablaşdırılması və satışı mütəxəssislərə ciddi ehtiyac var. Bütün bu işlər onu deməyə əsas verir ki, yaxın gələcəkdə tendensiya müsbətə doğru inkişaf edəcəkdir.

## Ekspertlər zaman-zaman ölkəmizdə aqrar sahə üzrə ixtisaslı kadr çatışmazlığı olduğunu qeyd edirlər. Bəs, tələbələrin kənd təsərrüfatı sahəsində təcrübə qazanmaq üçün xarici ölkələrə göndərilməsi bu sahədə bir canlanma yarada bilər?

**İqtisadçı-ekspert Rauf Qarayev** isə məsələyə fərqli aspektdən yanaşıb. Ekspertin sözlərinə görə, Sovet sisteminin vaxtında Azərbaycanın kənd təsərrüfatı sahəsində ki-



fayət qədər təcrübəli və peşəkar kadr potensialı vardı: SSRİ-yə daxil olan 15 ölkədə intellektual səviyyəsi ilə özünü təsdiq etmiş kənd təsərrüfatı mütəxəssisləri, alimlərimiz olub. Ölkədə heyvandarlıq, bitkiçilik üzrə kifayət qədər peşəkar kadrlar yetişirdi. O vaxtlar təcrübə keçmək üçün baza da mövcud idi. İstənilən alim gedib hansısa bir kolxozda öz kəşfini sınaqdan keçirə bilirdi. Dövlət tərəfindən də bu cür layihələrin həyata keçirilməsi üçün xüsusi vəsait ayrılırdı.

SSRİ dövründə peşəkar mütəxəssisin yetişməsi üçün bünövrə olduğunu vurğulayan iqtisadçı onu da qeyd edib ki, durğunluq SSRİ dağılandan sonra olub. Artıq təcrübə keçmək üçün sınaq yerləri yox idi. Kənd təsərrüfatı sahəsində elm adamları əvvəlki kimi öz təcrübələrini keçirə bilmirdi. Dövlət tərəfindən də, yardımlar demək olar ki, yox idi. Kim nə edirdisə, öz gücünə etməli idi. Bu baxımdan kadr kasadlığı yaranmağa başladı. Hətta deyərdim ki, baytar, aqronom olmaq aşağı səviyyəli ixtisas sayılırdı. Çox adam cəhd belə etmirdi ki, gedib bu sahədə təhsil alsın. Kəndli öz təcrübəsinə əsaslanaraq işini qururdu.

Ekspertin fikrincə, zəncirin müstəqilliyə keçid dövründə qırılmasının hələ də fəsadlarını görürük. Amma artıq müasir kənd təsərrüfatı, müasir biliklər tələb edir. Yəni xarici texnologiyaların tətbiqi, su qıtlığını aradan qaldırmaq üçün mexanizmlərdən istifadə, havanın zəhərlənməsi bitkini təbii yolla yetişdirmək mümkün olmadığından, dərman komponentlərini də aqronom bilməlidir. Müasir dövrdə artıq ölkədə ən tələbatlı kadr aqrar sahə üzrə yüksək ixtisaslı kadr sayılır. Yəni kadr təhsildən əlavə, təcrübə kurslarına da gedib öz biliyini inkişaf etdirməlidir. Xarici dil biliyi olmalıdır ki, müasir dövrlə ayaqlaşa bilsin. Azərbaycanın özündə Kənd Təsərrüfatı Nazirliyində idarəçilik baxımından kadr kasadlığı var. Təəssüf hissi ilə qeyd etmək istəyirəm ki, bizim aqrar sahə üzrə nazirlikdə kənar və vəzifələrinə uyğun olmayan kadrlar var. Bundan əlavə yerli kadrların biliyinə güvən prinsipi yoxdur. Nəticədə idarəçilik heyəti məcbur qalıb kənarda işçi axtarır. Halbuki, xaricə göndərilən kadrları özümüz də yetişdirə bilərik.

***Havar Şəfiyeva***



# Sosial şəbəkə profilləri və ya səhifələri niyə bloklanır?

***Bu gün həyatımızı sosial şəbəkələrsiz təsəvvür etmək çətindir. Milyonlarla insan onlardan təkcə əyləncə üçün deyil, həm də biznes, müştəri ilə birbaşa ünsiyyət, müxtəlif analitiklərin toplanması və hətta iş axtarmaq üçün fəal şəkildə istifadə edir. Amma son illər sosial şəbəkələr kibercinayətkarları daha çox cəlb edir. Fırıldaqçılar saxta hesablar yaradır və zərərli məzmunu görünməmiş miqyasda və görünməmiş səmərəliliklə yayırlar.***




Ekspertlər son bir neçə ildə sosial şəbəkələrdən istifadə etməklə həyata keçirilən bir sıra son dərəcə təhlükəli və dağıdıcı kiberhücumların fəaliyyət göstərdiyini qeyd edirlər. Hesab oğurluğu və digər məqsədyönlü sosial media hücumlarının təsirini minimuma endirmək üçün ekspertlər etibar edə bilmədiyiniz istifadəçilərlə qarşılıqlı əlaqənizi məhdudlaşdırmağı tövsiyə edir.

Mütəxəssislər işçiləri, menecerləri və biznesləri sosial media təhdidlərindən qorumaq üçün avtomatlaşdırılmış sosial media mühafizəsi alətinin tətbiqini tövsiyə edir. Məlum məsələdir ki, son dönəmlər sosial şəbəkələrdə bir çox saytlara və profillərə qarşı təxribat işləri həyata keçirilir.

Sosial şəbəkələr və smartfonlar üzərindən yayılmasına cəhd edilən müharibə haqqında bütün təxribat xarakterli məlumatlar, şəkillər və videoyazılar bloklanmalıdır. Bir istifadəçinin bu məlumatı yaymaması, onun digər istifadəçiyə çatmasının qarşısını alır. Vətən müharibəsi şəraitində ən dürüst və yeganə məlumat mənbəyi rəsmi şəxslər və dövlət qurumlarıdır, bunu daima yadda saxlamalıyıq. Qeyri-rəsmi mənbələrdən yayılan məlumatlar ən yaxşı halda təsdiq olunmamış məlumat və ya şaiyə, ən pis halda isə təxribatdır.

**Media eksperti, Əməkdar jurnalist Azər Həsrət** SİA-ya açıqlamasında sosial mediaya olan hücumların xüsusən də o sahədə saxta profillərdən istifadənin, eyni zamanda çox məşhur insanların hesablarının ələ keçirilməsini hibrid müharibənin tərkib hissəsidir deyərək vurğulayıb. Yəni Azərbaycana qarşı həm ölkə içində, həm ölkə xaricində müəyyən qüvvələr və mərkəzlər dayanmadan müharibə aparırlar.

Təbiidir ki, bu müharibədə özəlliklə də informasiya yaymaq üçün ən əlverişli platformalar olan sosial media hesablarının ələ keçirilməsi öndə gəlir. Təsəvvür edin ki, məşhur bir adamın hesabını ələ keçirirlər və həmin hesabdan yalan informasiya yayıb ictimai rəyi çaşdırırlar. Belə hallar çox olub və nəticə etibarilə ölkədə ilkin rəyi çaşdırıb sonra onu düzəltmək üçün müəyyən vaxt tələb olunur. Bütün bunların arxasında o qüvvələr dayanır ki, onlar Azərbaycanın bir dövlət kimi inkişaf etməsini, ayaqda durmasını, sabitliyini istəmirlər. Ölkəmizin Ermənistan üzərində olan qələbəni hələ də həzm edə bilmir, ümumiyyətlə Azərbaycanı bir türk dövləti olaraq bu qədər irəli getməsini qəbullana bilmirlər. Ona görə də onlar bu cür sosial media cinayətlərini həyata keçirməyə çalışırlar. Azərbaycanın ictimai rəyini qarmaqarışıq etmək, əlavə olaraq saxta profillərlə azərbaycanlının ad-soyadı altında daxili ictimai rəyə təsir etmək üçün manipulyasiyalar etməklə məşğuldur. Bu profillərin arxasında gizlənərək bir qayda olaraq vətəndaşların ürəyi yanırmış kimi göstərir və bizim bəzi dayaz düşüncəli insanlarımız buna aldanır, onların arxasınca gedirlər. Son günlər baş verən qarşıdurma zamanı Ermənistan Azərbaycana təcavüz etməyə cəhd etdi, Azərbaycan ordusu da əlbəttə ki, o təcavüzün cavabını verməyə məcbur oldu və bu yöndə bizim şəhidlərimiz də oldu, amma vətən torpağının bütünlüyünü qoruya bildik. Mediada ermənilərin tərəfdarları olan adamlar saxta profillərdə gizlənmiş azərbaycanlı kimi özünü təqdim edərək "niyə bu şəhidləri verdik", "niyə kasıbların uşaqları öldü" şüarı altında xalqın yumşaq yerindən vurmağa çalışırlar.

Deyilən problemlə bağlı bizim təkliflərimiz illər öncə də olub, indi də təkrarlayıram. Azərbaycan daxilində sosial media istifadəçiləri ilə bağlı çəki düzən verilməlidir. Bunu illər öncə ABŞ-da da müzakirə ediblər. Düşünürəm ki, ən ağlabatan və məntiqli yol budur. Sosial mediada qeydiyyat şəxsiyyət vəsiqəsi ilə olsun. Onda artıq saxta səhifələri açmaq problemi yaranacaq. Mütləq adamın əlində şəxsiyyət vəsiqəsi olmalıdır ki, o vəsiqə ilə sosial mediada hesab açsın və o hesabdan da paylaşımlar etsin.

"Hər sosial şəbəkənin öz qayda-qanunları var, əgər siz o qaydaları pozsaz profilinizi bağlaya bilərlər. Bu qaydalar başqa insanların bəzi video platformalarda videoların paylaşması qadağasıdır". Bu sözləri **texnobloger Tariyel Ağazadə** deyib.

Paylaşılan video irqi və ya ayrı-seçkilik, cinsi ayrı-seçkilik və yaxud insanlara qarşı nifrət oyadan bir mövzudursa dərhal həmin profil blok olunur.

Profilinizin bağlanmasının ikinci səbəbi şikayət olunmasıdır. Hər hansı bir postu paylaşırsız və buna görə insanlar sizin səhifənizi, postunuzu şikayət edəndə profil müvəqqəti və ya həmişəlik bağlanır. Bunun qarşısını almaq üçün həmin sosial şəbəkələrə ilk qeydiyyat zamanı sizdən təsdiqlənməsi tələb olunan qayda qanunlara əməl etməyinizdir. Həmin qaydaları diqqətlə oxuyun və təsdiq edin, təsdiq etmiş andan bəri həmin qaydalar pozulanda profil avtomatik olaraq bloklanır. Bloklanmış profillərin geri qaytarılması daha çox "instaqram", "facebook" və digər platformalar üzərindən həyata keçirilir və şikayətinizlə bağlı geri dönüş edirlər. Onlar şikayətinizə baxır əgərləri siz orada arqument verə bilsəz ki, mənim profilim dondurulub və dayandırmamalıdır, bunu sübut etdiyiniz halda profil geri qaytarılır.

**İT mütəxəssisi Fərhad Mirəliyev** isə qeyd edir. Sosial şəbəkələrdə qeyri-normativ leksika, söyüş, nifrət nitqi, açıq müharibə çağırışları etmək olmaz, düşmən tərəfi alçaltmaq sizin profilə qarşı məhdudiyyətlərə gətirib çıxaracaq

- Düşmənin itkiləri olan video görüntüləri şəxsi profillərdə yaymaq və tirajlamaq olmaz.
- Provakasiya, hadisələrin şişirdilməsi, sensassiya xətrinə yalan və uydurma məzmunlar yayılmamalıdır.
- Mükəmməl şəkildə təbliğat aparan adamı belə kütləvi şəkildə, profil sahibi məni təhqir edir, narahat edir, paylaşımlarında olan fikirlər çox zərərlidir və s. kimi qeyd edərək şikayət edə, bir müddətlik profilin məhdudiyyət tətbiqinə nail ola bilərlər.

Əgər profilə məhdudiyyət tətbiq edilibsə, o zaman texniki dəstək xidmətinə müraciət edilməlidir. Məhdudiyyətin səbəbi araşdırılmalı və mümkün hallarda bu səbəb aradan qaldırılmalıdır. Bundan sonra sizdən doğrulama məlumatları tələb oluna bilər.

**Bəs belə hallar hüquqi cəhətdən necə tənzimlənir?**

**Vəkillər kollegiyasının üzvü, vəkil Anar Ramazanov** bu barədə SİA-ya danışıb.

Ümumiyyətlə bu kimi əməllər, yəni digər şəxsin müəyyən bir media qurumlarının saytlara, istənilən dövlət qurumlarına və ya hüquqi şəxslərin şəxsi işgüzar saytlarına qanunsuz olaraq daxilolma həmin sistemlərin mühafizəçi tədbirlərini pozmaqla müəyyən qanundan kənar addım ataraq informasiyaların çıxarılması, ötürülməsi, satılması Azərbaycan Respublikasının Cinayət Qanunvericiliyində məsuliyyət yaradır. Və Cinayət Məcəlləsinin 30 cür fəsli ilə kibercinayətlər hesab olunur. Cinayət Məcəlləsinin bu əməllərlə bağlı bir neçə maddəsi nəzərdə tutulur. Bunlar 271, 272, 273, 273-1-2-ci maddələrdir. Bu kimi əməllər mütəmadi olaraq işin araşdırılması nəticəsində müəyyən olunursa ki, burada kompüter sisteminə qanunsuz daxilolma mövcuddur, orada saxlanan məlumatlara qanunsuz daxil olmaqla Cinayət Məcəlləsinin 271.1 ci maddəsi ilə cəzalandırılır və 2000 manatdan 4000 manata qədər cərimə etməklə və ya 2 ilə qədər azadlıqdan məhrum etməklə cəzanlandırla bilir. Əgər kompüterə daxil olaraq məlumatlar qanunsuz ələ keçirmək niyyəti ilə edilərsə bu zaman Cinayət Məcəlləsinin 272 maddəsi ilə məsuliyyət yaranır və 272.1-ci maddəsinə görə 2000-dən 4000-ə qədər cərimə və ya 2 ilə qədər azadlıqdan məhrumetmə nəzərdə tutulub.

***Havar Şəfiyeva***

# "Neftçilərimizin əziyyəti danılmazdır"

***Azərbaycan neftçisi hər zaman əziyyətli və şərəfli peşəsinin haqqından layiqincə gəlib. O peşəsinin nə qədər əziyyətli, əhəmiyyətli olduğunun dərk edib və daim işinə xüsusi diqqət edərək peşəkarlıqla yanaşıb. Məhz bunun nəticəsidir ki, Azərbaycanda Neft strategiyası uğurla davam etdirilir. Bu strategiyanın əsası "Əsrin müqalivəsin"dən başlanır. Ulu Öndər Heydər Əliyev Azərbaycan neftçisinin peşəsini daha da özəl etmək üçün 20 sentyabr gününü onlara bəxş edib.***

20 sentyabr 1994-cü ildə "Xəzərin Azərbaycan sektorunda yerləşən Azəri, Çıraq və Günəşli (dərin hissəsi) yataqlarının (AÇG) işlənməsi və hasilatın pay bölgüsü" üzrə birinci saziş imzalandı. Sonralar "Əsrin müqaviləsi" adı ilə məşhur-



laşan bu saziş xarici şirkətlərə Azərbaycanda yeni sazişlərin imzalanması üçün geniş yol açdı. Aparılan neft siyasəti nəticəsində Azərbaycan Qafqazın və Xəzər regionunun geosiyasətində əhəmiyyətli yer tutmağa başlamışdır. Bu, neftimizin və neftçilərimizin çatdığı zirvə, qazandığı qələbə idi. Ulu öndərin uzaqgörən neft siyasətini bu gün Cənab prezident İlham Əliyev uğurla və qətiyyətlə davam etdirir. Neft və qaz ehtiyatlarının işlənməsi, həmçinin onların dünya bazarlarına ixracı üzrə nəhəng layihələrin həyata keçirilməsi sayəsində Xəzər regionu XXI əsrdə dünyanın əhəmiyyətli regionlarından birinə çevrilmişdir. Təbii ki, Azərbaycan neft sektorunun yüksəlişində nefçilərimizin rolu danılmazdır.

Ölkəmizin neft sənayesi Ağa Nemətulla, Süleymanov Ələkbər, Xanoğlan Bayramov, Bəhman Hacıyev, Mirkazım Məmmədov, Ağa Əliyev, Ənvər Məmmədov, Yusif Kərimov, Neftçi Qurban, Cümşüd İbrahimov, Əli Əmirov, Qaraş Əmirov, Rüstəm Rüstəmov, Baba Babazadə, Fuad Səmədovun və digərlərinin əməyi sayəsində inkişaf etmişdir. Neft yataqları neçə illərdir minlərlə azərbaycanlının iş yeri, neftçi peşəsi isə çörək ağacı, şöhrət tacıdır.

1994-cü ildən bu vaxta qədər ARDNŞ və xarici neft şirkətləri arasında karbohidrogenlərin kəşfiyyatı, hasilatı və məhsulun pay bölgüsü prinsipi üzrə 27 saziş imzalanmışdır. Sazişlər Azərbaycan neft siyasəti üçün önəmlidir. Sazişlərin həyata keçirilməsi ilə neft sənayesinin infrastrukturu xeyli dərəcədə təzələnəcək və neft sənayesinin yeni, güclü infrastrukturu yaranacaqdır. Bu sazişlərdə Azərbaycanın neft-qaz sənayesinə təxminən 60 milyard ABŞ dolları həcmində sərmayə qoyulması nəzərdə tutulmuşdur. Bu məbləğdən 4,5 milyardı artıq ölkəmizə investisiya şəklində qoyulmuşdur.

Hazırda Azərbaycanın bütün kateqoriyaları üzrə karbohidrogen ehtiyatları 4 milyard tondan çoxdur ki, bu da Azərbaycanı dünyanın ən iri neft regionları sırasına çıxarır.

Neft strategiyasının əsas istiqamətlərindən biri Azərbaycan neftinin dünya bazarına nəqlidir. Bu sahədə Azərbaycanın mənafelərinin uzunmüddətli şəkildə qorunması, genişmiqyaslı beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı, regionda neft hasilatının artması ilə əlaqədar neftin dünya bazarlarına nəqlinin təmin edilməsi məqsədi ilə strateji əhəmiyyətli Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin gerçəkləşməsi üçün gərgin işlər həyata keçirilmiş, aparılan danışıqlar uğurla nəticələnmişdir. Beləliklə, Azərbaycan neftinin Türkiyəyə nəql olunması barədə mühüm hökumətlərarası sazişlər imzalanmışdır.

Neft strategiyası nəticəsində Azərbaycan Xəzər dənizinin nəhəng enerji potensialını ilk mənimsəyən və regionun inkişafında keyfiyyətcə yeni iqtisadi modeli formalaşdıran, Avropa və Asiya arasında siyasi və ticarət əlaqələrinin genişləndirilməsində, Qafqaz nəqliyyat dəhlizinin inkişafında, İNOQEYT, TRASEKA və digər nəhəng layihələrin gerçəkləşməsində Xəzəryanı və Qafqaz regionunda mühüm rol oynayan bir dövlətə, dünyanın neft mərkəzlərindən birinə çevrilmişdir.

***Qönçə Quliyeva***

***Dinc əhaliyə qarşı cinayətlər törətmək, vandallıq, vəhşilik etmək, təxribatlara imza atmaq erməni xislətini göstərir və ermənilərin hələ də belə mənfur əməllərə əl atması bəşəriyyət üçün nə yenilik, nə də sirr deyil. Bütün dünya ictimaiyyəti yaxşı bilir ki, tarixən qonşu dövlətlərə qarşı məkrli ərazi iddialarını gerçəkləşdirmək, qondarma "Böyük Ermənistan" yaratmaq xülyası ilə yaşayan erməni millətçiləri bütövlükdə bəşəriyyətə və insanlığa qarşı yönəlmiş soyqırımı, terror siyasəti həyata keçiriblər və bir-birinin ardınca dəhşətli cinayətlərə əl atıblar.***

# Ermənilərin törətdikləri VƏHŞİLİKLƏRƏ SON QOYULMALIDIR!

**Təhlil**

Qeyri-hüquqi iddialarını reallaşdırmaq naminə təcavüzkarlıq siyasətini dırnaqarası ”milli mübarizə” yolu adlandıran ermənilər terroru, soyqırımı, vandallığı, vəhşiliyi dövlət səviyyəsində həyata keçiriblər və bu, hazırkı dövrə qədər Ermənistanın dövlət siyasəti hesab olunub. Xalqımıza qarşı erməni millətçilərinin apardığı soyqırım və təcavüz siyasətinin düz iki yüz ildən artıq tarixi var. Bu mənfur siyasətin məqsədi azərbaycanlıları öz qədim torpaqlarından sıxışdırıb çıxarmaq, bununla da bizə məxsus olan həmin ərazilərdə erməni tarixçilərinin və ideoloqlarının uydurduğu qondarma ”Böyük Ermənistan” dövləti qurmaqdır. Elə bu məqsədlə də dəfələrlə, özü də mərhələlərlə terror və soyqırım siyasəti aparıblar. Aparılan terror və soyqırım siyasətinin qanlı fəsadları təkcə böyük türk dünyasının deyil, bütün bəşəriyyətin başı üstünü qara bulud kimi, kabus kimi bürüyüb və onların törətdikləri Azərbaycan xalqının qan yaddaşında dərin izlər buraxıb.

Hər il mart ayının 31-i ölkəmizdə dövlət səviyyəsində azərbaycanlıların soyqırımı günü olaraq qeyd edilir və bu heç də təsadüfi deyil, çünki bu təqvim son yüz ildə Azərbaycan tarixində erməni millətçilərinin törətdikləri faciəli hadisələrin xalqın yaddaşındakı qanlı izlərini özündə əks etdirir. Məhz həmin tarixdə erməni şovinistlərinin Azərbaycanda kütləvi qırğınlar, qətliamlar törətməklə bəşər tarixində misli görünməmiş soyqırımına imza atması ötən əsrin, XX yüzilliyin ən qanlı səhifələrindən biri hesab edilir. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ermənilərin törətdikləri bu soyqırımın əsl hüquqi-siyasi qiyməti verildi və mart hadisələrinin 80-ci ildönümündə, daha dəqiq desək, 1998-ci il martın 26-da Ümummilli Lider Heydər Əliyevin imzaladığı ”Azərbaycanlıların soyqırımı haqqında” fərman erməni millətçilərinin hərəkətlərinə verilən ilk dolğun və hərtərəfli hüquqi-siyasi qiymət oldu.

Ermənilərin vandalizmini, vəhşiliyini, soyqırım siyasəti yürütməsini, qanlı cinayətlərə imza atmasını isbat edən tarixi faktlar yetərincədir və bu faktlar bütün bəşəriyyətə bəllidir. Bəllidir ki, XIX əsrin ikinci yarısından başlayaraq, ermənilərin azərbaycanlılara qarşı apardıqları soyqırım siyasəti təşkilatlanmış və planlı şəkildə olub. O da məlumdur ki, Azərbaycan, Türkiyə və Gürcüstan ərazisində qondarma ”Böyük Ermənistan” dövləti qurmaq xülyasına düşən ermənilər 1887-ci ildə Cenevrədə qurulan ”Qnçaq”, 1890-cı ildə Tiflisdə yaradılan ”Daşnaksütyun”, 1895-ci ildə Nyu-Yorkda təşkilatlanan ”Erməni Vətənpərvərləri İttifaqı” kimi öz siyasi-terror təşkilatlarını məhz bu istiqamətə, həmin məkrli planı, soyqırım siyasətini həyata keçirməyə yönəltmişdilər. Tarixi faktlar təsdiq edir ki, sadalanan həmin təşkilatların fəaliyyət proqramlarında məhz azərbaycanlılara qarşı ardıcıl terror və qırğın aksiyaları həyata keçirmək əsas yer tutub və həmin aksiyalarda onların rolu yetərincə olub.

Tarixə nəzərə salsaq görürük ki, erməni terrorunu, erməni vandalizmini, vəhşiliyini, soyqırımlarını, qanunsuz əməllərini sübut edən faktlar həddindən artıqdır. Hələ 1905-1907-ci illərdəki Rusiya inqilabı zamanı yaranan qarışıqlıqdan da ermənilər istifadə etdilər və fürsətdən istifadə edərək, Bakı, Şuşa, Zəngəzur qəzalarında, Qarabağda 75 azərbaycanlı kəndini talan etdilər, kütləvi qırğınlar törətdilər. Türkiyənin şimal-şərq bölgələrinin erməni əhalisi də 1915-ci ilin əvvəlində Osmanlı dövlətinə qarşı müharibəyə və türklərin kütləvi qırğınlarına başladı. Osmanlı dövləti bununla əlaqədar olaraq, erməni əhalisinin həmin ərazilərdən kütləvi şəkildə köçürülməsi barədə əmr verdi və İrəvan quberniyasına, Qarabağa və Zəngəzura Türkiyə ərazisindən köçən erməni hərbi dəstələri Rusiya ordusuna arxalanaraq, əvvəlcə Naxçıvanda və İrəvanda, sonra isə Qarabağda, eləcə də Azərbaycanın digər bölgələrində azərbaycanlılara qarşı qanlı cinayətlər törətməyə başladılar. Bunun ardınca da, 1917-ci ilin dekabrında Osmanlı dövləti ilə bolşeviklərin Zaqafqaziya Komissarlığı arasında bağlanmış Ərzincan barışığına uyğun olaraq, Qafqaz cəbhəsindən çıxarılan rus ordusunu əvəz edən erməni hərbi birləşmələri başıpozuqluq şəraitindən istifadə edərək yerli müsəlman əhaliyə divan tutdu. Yaranmış şəraitdən istifadə edən ermənilər 1918-ci ilin martına qədər İrəvan quberniyasında 199 azərbaycanlı kəndini dağıtdılar, bu ərazidə yaşayan 135 min azərbaycanlının böyük əksəriyyətini qətlə yetirdilər. 1918-ci il martın 30-da isə səhər tezdən erməni-bolşevik birləşmələri Bakı şəhərini gəmilərdən top atəşinə tutdular, sonra da silahlı daşnaklar azərbaycanlıların evlərinə soxularaq amansız qətllər törətdilər. Xatırladaq ki, martın 30-u, 31-i və aprelin 1-i olmaqla, üç gün ərzində Bakıda dinc əhali, 30 min insan erməni-bolşevik birləşmələri tərəfindən qətlə yetirildi. Martın 30-dan aprelin 2-dək davam edən erməni vəhşiliyinin fonunda ermənilər tərəfindən Şamaxı qəzasının 53 müsəlman kəndində 8 027 azərbaycanlı qətlə yetirildi, Quba qəzasında 162 kənd darmadağın edilərək, 16 mindən çox insanın həyatına son qoyuldu, Lənkəranda, Muğanda minlərlə azərbaycanlı öldürüldü, Qarabağda 150 azərbaycanlı kəndi tamamilə dağıdıldı, Şuşada görünməmiş qırğınlar törədildi. Şaumyanın rəhbərlik etdiyi erməni-bolşevik dəstələri Bakı əhalisinin 400 milyon manatlıq əmlakını ələ keçirərək mənimsədilər, müsəlmanların bir çox ziyarətgahlarını dağıtdılar, mədəniyyət abidələrinə zərər vurdular. Daşnak-bolşevik qüvvələri Təzəpir məscidini top atəşinə tutdular, Bakının ən möhtəşəm memarlıq incilərindən sayılan ”İsmailiyyə” binasına od vurdular və bununla da təsdiq etdilər ki, onlar bütün bəşəriyyət üçün qara yaradırlar, çünki maddi-mədəniyyət abidələri bütün bəşəriyyətə məxsusdur.

Ötən əsrin sonlarında yenə də fürsət tapan, Sovet imperiyasının dağılması ilə yaranan qarışıqlıqlardan sui istifadə edən erməni millətçiləri öz iç üzlərini bir də ortaya qoydular, Azərbaycan ərazilərini ilhaq etmək niyyətlərini açıq şəkildə göstərdilər və ardınca da hər şeyə, hətta qanlı cinayətlərə, qətliamlara, soyqırıma belə əl atdılar. Ümumiyyətlə, artıq Azərbaycanın qələbəsi, ölkəmizin 44 gün ərzində qazandığı Zəfər sayəsində keçmişdə qalan Dağlıq Qarabağ münaqişəsi adı altında Ermənistanın 1987-1988-ci illərdən başlayaraq tutduğu mövqe və atdığı hər bir addım beynəlxalq hüquqla qadağan edilmiş zor tətbiq etməyə, digər dövlətin ərazisini ilhaq etməyə, dinc əhalinin, xüsusən azərbaycanlıların qətliamına hədəflənmişdi. Ermənistanın dövlət səviyyəsində dəstəklədiyi terror aktlarının başlıca hədəfi də, təcavüzkar separatçılıq vasitəsilə Azərbaycan ərazisinin ilhaqına yönəlmişdi. Azərbaycan ərazilərinin ilhaqı məqsədilə terrorizmi və separatizmi özünə başlıca vasitə seçən, hətta terrorizmi, separatizmi dövlət səviyyəsində dəstəkləyən ermənilər 1988-ci ildən bəri Azərbaycanda yüzlərlə terror aktı törədiblər ki, bu aktların izləri Ermənistana, eləcə də Qarabağ separatçılarına gedib çıxır və bunun nəticəsində də minlərlə dinc əhali həyatından məhrum olub. Onların törətdikləri terror aktları nəticəsində dinc əhali arasında həlak olanların böyük əksəriyyətini qadınlar, uşaqlar və qocalar təşkil edir, hansı ki, bunun adı vəhşilikdir.






Ermənilər Azərbaycan Respublikasının Xocalı şəhərinin əhalisinə 1992-ci ilin 26 fevralında misli görünməyən divan tutdu, tarixə Xocalı soyqırımı kimi həkk olunan bu qanlı faciə çoxlu sayda dinc Azərbaycan vətəndaşının, azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerlə-yeksan edilməsi ilə nəticələndi. Bu hadisə heç də təsadüfi baş vermədi və 1992-ci il fevralın 25-dən 26-na keçən gecə xüsusi qəddarlıqla törədilmiş Xocalı soyqırımı erməni şovinist-millətçilərinin azərbaycanlılara qarşı iki əsrdən artıq müddətdə həyata keçirdiyi etnik təmizləmə və soyqırımı siyasətinin davamı, qanlı səhifəsi, Ermənistanın Dağlıq Qarabağı işğal etmək məqsədilə apardığı işğalçılıq siyasətinin gedişində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımı cinayətlərinin miqyasca ən dəhşətlisi hesab olunur. Erməni təcavüzkarlarının Azərbaycan xalqına qarşı törətdikləri bu növbəti genosid, yəni Xocalı soyqırımı nəticəsində 613 nəfərin, o cümlədən 106 qadının, 63 azyaşlı uşağın, 70 qocanın həyatına son qoyuldu, 487 nəfər şikəst oldu, 1 275 dinc sakin girov götürüldü, 150 nəfər itkin düşdü. Bu soyqırımı aktı ilə bəzi ailələrin bir nəfəri belə sağ qalmadı, mülki əhali görünməmiş qəddarlıqla qətlə yetirildi, girov götürülənlərə amansız işgəncə verildi və həmin əməllərin qabaqcadan düşünülmüş qaydada, milli zəmində insanların məhv edilməsi niyyəti ilə törədilməsi faciənin məhz soyqırımı olduğunu bir daha sübut edir.

Dinc əhaliyə qarşı ermənilərin vəhşiliyi, vandallığı ötən əsrdə baş verən hadisələrlə bitmədi və hətta XXI əsrin əvvəllərində bunun bir də təkrarlandığını bütün dünya müşahidə etdi. Sərhəd zonasında durmadan atəşkəsi pozaraq təxribatlara rəvac verən Ermənistan, 2020-ci ildə Tovuz hadisələrinə, genişmiqyaslı təxribatlara əl atdı və bunun nəticəsində şəhid olanlar, yaralananlar oldu. Bunun ardınca isə ermənilərin təxribatları davam etdirmək cəhdlərinə, növbəti təxribatçı hərəkətlərinə cavab olaraq, Azərbaycan antiterror əməliyyatlarına başlamalı oldu və 44 günlük müharibə ermənilərin vəziyyəti öz xeyirlərinə dəyişmək arzularına son qoydu, çünki məntiqi nəticə olan rüsvayçı məğlubiyyətlə qarşılaşdılar. Məsələ burasındadır ki, Ermənistan tərəfi beynəlxalq hüququ heç zaman hesaba almadığı kimi, müharibə zamanı da saya salmadı və müharibə cinayətlərinə əl atdı. Faşizmin belə etmədiyi əməllərə əl atan ermənilər dinc əhalini hədəfə aldı, istifadəsi qadağan olunmuş silahlardan istifadə etdi. Gəncə, Tərtər hadisələri ermənilərin belə çirkin əməllərinin, dinc əhaliyə qarşı vəhşiliyinin nümunəsi kimi yaddan çıxan deyil. Döyüş meydanında müqavimət göstərə bilməyən, qaçıb aradan çıxan, Azərbaycan Ordusu qarşısında davam gətirə bilməyən ermənilər yenə də namərdcəsinə dinc əhalini hədəfə alaraq, öz silahlarını, özü də qadağan edilmiş silahlarını mülki əhalinin məskunlaşdığı şəhərlərə, yaşayış binalarına tuşladılar. Nəticədə isə, arasında qadınlar, qocalar və azyaşlılar olmaqla bir çox insanın qətlinə səbəb oldular və bunun da bütün dünya şahidi oldu. Xarici ölkələrdən olan nümayəndələr, məhz ermənilərin müharibə cinayətlərini, dinc əhaliyə qarşı vəhşilik törətdiyini Gəncədə, Tərtərdə olduqları zaman dəfələrlə öz gözləri ilə gördülər, ermənilərin xislətinə, simasızlığına, vandallığına bir daha əmin oldular.

Müharibə sona çatsa da, məğlubiyyətlərini kapitulyasiya sənədini imzalamaqla, rəsmi şəkildə qəbul etsələr də, rüsvayçı və aciz duruma düşsələr də, ermənilər öz mənfur əməllərindən, cinayətlərdən, təxribatlardan əl çəkmədilər və belə görünür ki, əl çəkmək fikrində də deyillər. Sülh müqaviləsinin imzalanması gözlənildiyi halda, buna hazırlaşmaq əvəzinə, ermənilər yenə də təxribatlar törətməyə, cinayətlərə əl atmağa, qanunsuz əməllərə rəvac verməyə davam edirlər. Hətta 44 günlük müharibədən sonra da təxribat törədən ermənilər bunun acı nəticələrini dadsalar da, Qisas əməliyyatı ilə yerlərində oturdulsalar da, yenə də xislətlərindən əl çəkmirlər və bir-birinin ardınca təxribat törədirlər. İşğal etdikləri ərazilərdən çıxmaq məcburiyyətində qalan ermənilərin bu zamana qədər yaşadıqları əraziləri minalamaları, həmin yerləri yandırmaları yetməzmiş kimi, hələ bir həmin əraziləri vaxtaşırı atəşə tutmaları da onların simasızlıqlarını, dinc əhaliyə qarşı amansızlıqlarını sübut edən faktlardır. Son günlər, daha dəqiq desək 12 sentyabr tarixində ermənilərin sərhəd zonasında yenidən təxribatlar törətməsi nəticəsində yenə də həlak olanlar var. Hətta kənd təsərrüfatı ilə məşğul olan insanların belə erməni cinayətlərinə görə zərər çəkdiyi, həlak olduğu, yaralandığı fktları da danılmazdır, hansıki bunlara son qoyulmalıdır. Sülhsevər ölkə olan Azərbaycan bununla bağlı öz təkliflərini irəli sürüb, təxribatların, cinayətlərin dayandırılmasını tələb edib və təbii ki, Ermənistan bu kimi cinayət ənələrinə, təxribatlara davam etsə bilməlidir ki, dəfələrlə başlarına endirilən dəmir yumruq da öz yerindədir.

Maraqlıdır, dünya dövlətləri, ələlxüsus beynəlxalq təşkilatlar hələ də erməniləri öz çirkin niyyətlərindən, cinayət əməllərindən çəkindirə bilmir. Görünür, hələ də ələlətsiz mövqe nümayiş etdirilməsi davam edir. Əlbəttə ki, ermənilərin 1988-ci ildən etibarən davam edən mənfur siyasətinin hansı faciələrlə nəticələndiyi bir sıra dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən etiraf olunsa da, hərbi qarşıdurma zonasından yüz kilometrlərlə kənarda yerləşən Azərbaycanın yaşayış məntəqələrində erməni separatçıları tərəfindən törədilən və minlərlə dinc insanın həlak olması, yaralanması ilə nəticələnən çoxsaylı terror aktlarına yanaşmada "ikili standartlar"ın mövcudluğu ciddi narahatlıq doğurur. Məsələ burasındadır ki, dünya dövlətləri erməni terrorunu öz daxillərində də görüblər. 1983-cü ilin iyun ayında Parisin Orli aeroportunda 8 nəfərin ölümü və 50-dək insanın yaralanması ilə nəticələnmiş terror aktı buna cəmi bircə nümunədir, halbuki belə faktlar olduqca çoxdur. Bu faktları 1981-ci ildə Türkiyənin Romadakı səfirinə Melkonyanın sui-qəsd etməsi ilə davam etdirə bilərik, amma bunlar belə ermənilərin bütün dünyada terrorçi kimi tanınmaları üçün kifayət edir. Görəsən, niyə bu qanunsuzluğa, terrorçuluğa, vandallığa, vəhşiliyə qarşı çıxmır özünü dünyanın demokratik ölkəsi, insan azadlıqlarının müdafiəçisi kimi göstərən dövlətlər? Nəyə görə aeroportda terror törədən terrorçu Qarabedyan 2001-ci ilin aprelində Fransa məhkəməsi tərəfindən azad olundu və Ermənistanda rəsmi sığınacaq tapdı? Bəs, Melkonyan niyə 1990-cı ildə Fransa həbsxanasından buraxılaraq Ermənistana göndərildi? Terror fəaliyyətini davam etdirmək üçünmü?

Sözsüz ki, erməni vandallığı, vəhşiliyi bütün dünyada qınanılmalı, bütün dünya bununla mübarizə aparmalıdır. İstər beynəlxaq təşkilatlar, istərsə də dünyanın inkişaf etmiş, fövqəl dövlətləri bu mənfur siyasətə, əməllərə qarşı olmalıdırlar. Çünki ermənilərin hətta Azərbaycanda belə dinc insanlara qarşı törətdiyi cinayətlər bütün insanlığa qarşı cinayət sayılır. Elə ona görə də bu cinayətlər bütün bəşəriyyəti narahat etməlidir və dünya dövlətləri, beynəlxalq təşkilatlar bunun aradan qaldırılması üçün müvafiq tədbirlər görməlidirlər. Qanunsuzluqlarına, törətdiyi, törətməkdə də davam etdiyi cinayətlərə görə ən azından Ermənistana sanksiyalar tətbiq edilə bilərdi, necə ki, bunu öz mənafeləri naminə bəzi ölkələr, bəzi beynəlxalq təşkilatlar Rusiya-Ukrayna müharibəsi fonunda rəsmi Moskvaya qarşı hələ də tətbiq edirlər.

Hər bir halda, yəni dünya ermənilərin qanunsuzluqlarına, cinayət əməllərinə nə reaksiya verməsindən asılı olmayaraq, əvvəla, Azərbaycan öz sözünü deyir, tələblərini də irəli sürür. Digər tərəfdən də, ermənilərin necə bir xislətə sahib olduqları, eləcə də bu zamana qədər törətdikləri yaddaşlardan silinməməlidir, silinməz də. Hətta gələcək nəsillər erməni məkri barədə xəbərdar edilməli, ermənilərin törətdikləri vəhşiliklər barədə məlumatlandırılmalı ki, ayıq-sayıqlıq ruhunda tərbiyə olunsun. "Azərbaycanlılara qarşı zaman-zaman törədilən ağır cinayətləri unutmamaq, böyüyən nəsli bədxah qüvvələrin məkrli niyyətlərinə qarşı ayıq-sayıqlıq ruhunda tərbiyə etmək mühüm vəzifədir", deyən Ulu Öndər Heydər Əliyev də məhz bunu bizə tövsiyə edib.

*İnam Hacıyev*



# TV-lər geyindirir, yoxsa soyundurur?

**Qönçə Quliyeva**

***Hər bir televiziya aparıcısı, yəni spiker, ilk növbədə, çoxsaylı izləyici qarşısına çıxdığını dərk edərək istənilən xarakterli yayıma xüsusi hazırlaşmalıdır. Əslində, xüsusi hazırlaşmaq deyərkən mən heç də "full" makiyaj, yaxud toya gedirmiş kimi geyim tərzlərini nəzərdə tutmuram. Bizlər verilişlərin məzmununa görə aparıcı xanımların və bəylərin müxtəlif geyimlərini görürük. Amma bəzi xanımlar özəlliklə açıq-saçıq, zər-zibalı geyimlər geyinərək izləyicinin diqqətini əslində verilişə deyil, özlərinə tərəf cəlb edirlər. Bəy aparıcılar isə idman xarakterli geyim adı altında üstündə mənasız şəkilləri olan koftalar və bütün bədənə yapışan "losin" tipli şalvarlar geyinirlər. Təbii ki, bu bilavasitə TV-nin nüfuzuna və çəkisinə ayrıca mənfi təsirlərini göstərir və söz yox ki, heç kim bənzər geyimləri izləmək məcburiyyətində də deyil...***

Ancaq çox maraqlıdır ki, bu tipli aparıcılar heçmi düşünmürlər ki, onlar ictimaiyyətə hansı şəkildə görünürlər? Yaxud, ictimaiyyət onlara hansı nəzərlərlə baxır və qiymət verirlər? Təbii ki, hər kəs öz geyimini seçməkdə azaddır. Lakin bunu edə bilməyiniz, o demək deyil ki, bunu mütləq etməlisiniz (?!)

Reallıqda canlı efirdə geyindiyiniz paltar özünüzü dünyaya necə təqdim etdiyinizi göstərir. Modelyerlərin bir deyimi var - istənilən vəziyyətə uyğun geyinmək tonlanmış görüntünün və özünə inamın açarıdır. Kamera qarşısında isə daha canlı görünmək üçün al-bəzəkli qısa və açıq geyinmək izləyicinin nəzərlərini çəksə belə, əsla yaxşı ictimai baxış yaratmır. Halbuki, aparıcı "efir dili" deyilən nitqi ilə yanaşı, həm də üz çizgiləri, mimikaları, davranışı və əlbəttə ki, haqqında bəhs etdiyimiz geyim tərzi ilə yaddaşlarda qalır.

O da əbəs deyil ki, bu gün əsasən TV izləyiciləri arasında ən çox müzakirə olunan mövzu da təxminən bu cürdür: "Filankəs aparıcı efirə əcayib geyimlə çıxmışdı, sanki yataqdan yenicə qalxaraq canlı yayıma gəlib", yaxud, "o günləri filan aparıcı son dəbdə olan cırıq cins şalvarla efirə çıxarkən kifayət qədər mədəniyyətsizlik təsiri bağışlayırdı", "qadın müğənni o qədər açıq-saçıq geyinmişdi ki, hətta bir əli əynindəki paltarının üstündə idi, ehtiyat edirdi ki, sürüşüb düşməsin" və s...

Hamımızın çox yaxşı bildiyimiz kimi, müasir dövrümüzdə hər kəs hər şey haqqında danışır və onu ifadə etmək üçün ictimai platformaya çox rahat çıxışı var.

Ancaq o da sirr deyil ki, bəzi məşhurlar, teleaparıcılar və müxbirlər qəsdən, bilərəkdən, sensasiya yaratmaq xətrinə bu cür geyinirlər. Amma yadlarından çıxarırlar ki, çıxdıqları efir yalnız onların özlərinə aid deyil, o tamaşaçılara, izləyicilərə aid olan bir amildir. Ona görə də, artıq belə bərbad görüntülərin qarşısını almaq vacibliyə çevrilir. Daha dəqiq desək, verilişləri bazar kimi istifadə etmək olmaz. Verilişə dəvət olunan şəxslərində davranışına, mədəniyyətinə fikir verilməsi mütləqdir. Dəvət olunan müğənnilər, şou-biznes nümayəndələri belə efirə uyğun geyməlidir. Düşünürəm ki, bir şəxsin özündə hörmət yaratması, ictimai nüfuz qazanması üçün ilk öncə efir mədəniyyəti olmalıdır. Efir mədəniyyəti tələb edir ki, həmin şəxs özü-özünə nəzarət etsin, həm davranışına həm də geyiminə. Yox, alınmırsa, yaxud bunu istəmirsə, demək ki, bu, onun ictimai rəyə hörmətsizliyidir. Beləliklə, sual - ictimai rəyə hörmət bəsləməyənə ictimai rəy hörmət göstərməlidirmi..?

Yəqin ki, bu sualın cavabını da dəyərli oxucularımız verə bilərlər!

***Böyük İpək Yolunun üzərində mühüm dayanacaq kimi tanınan Azərbaycan inkişaf dövrünü yaşayaraq, daha geniş şəkildə xarici ölkələrdən turistləri qəbul edib. Tarixən turizm məkanı olaraq tanınan Azərbaycan dövlətinə ilk səyahətlər ticarət, dini, siyasi məqsədləri ilə əlaqəli olub. Qədim Azərbaycan ərazisindən keçən ticarət karvanlarının hərəkəti ilk səyahətlər kimi qəbul olunub. İstər qədim dövrlərdə, istərsə də sovet məkanında yaşadığımız zamanda Azərbaycan təbiəti, təbii sərvətləri, iqlimi, yeraltı və yerüstü sərvətləri ilə xarici vətəndaşların diqqətində olub.***

# Rəqabətə davamlı turizm ölkəsi

## *Dövlət başçısının Sərəncamı ilə "Turizm İşçiləri Günü" sentyabrın 29-da qeyd olunacaq*



Bu gün beynəlxalq aləmin dövlətimizə olan marağının miqyası daha da genişlənmiş, turizm sahəsində əldə olunan nailiyyətlər, həyata keçirilən dövlət proqramları, layihələr turizm sahəsində böyük uğurlara səbəb olub. Bütün fəsillərdə gözəlliyə qərq olan Azərbaycan təbiətin bəxş etdiyi bütün yeraltı, yerüstü sərvətləri, iqlimi ilə cəlbedici edir. Turistlər də məhz təbiəti bənzərsiz, əmin-aman bir ölkədə istirahətlərinin təşkilinə önəm verdikləri üçün seçdiklər məkanlar sırasında Odlar Diyarı kimi tanınan Azərbaycana üz tuturlar.Geniş turizm imkanlarına malik olan Azərbaycan 2001-ci ildən etibarən geniş şəkildə Dünya Turizm Gününü qeyd edir. Məhz həmin il Azərbaycan BMT-nin Dünya Turizm Təşkilatının Seulda keçirilən 14-cü Baş Assambleyasında təşkilata üzv kimi qəbul olunub. 27 sentyabr tarixi ölkəmizdə həm də turizm işçilərinin peşə bayramı kimi qeyd olunurdu. Prezident İlham Əliyevin 2016-cı il sentyabrın 1-də imzaladığı Sərəncama əsasən Dünya Turizm Günü ölkəmizdə "Turizm işçiləri günü" kimi təntənəli şəkildə keçirilirdi. "Azərbaycan Respublikasında "Turizm işçiləri günü" peşə bayramının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 sentyabr tarixli 2297 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə dövlət başçısı Sərəncam imzalayıb. Sərəncama əsasən, "27-si" sözləri "29-u" sözləri ilə əvəz edilib.

### TURİZMİN RASTLAŞDIĞI PROBLEMLƏR HƏLLİNİ TAPDI

Yaxın tarixi keçmişimizə nəzər salsaq görərik ki, müstəqillik qazandığımız ilk illərdə Azərbaycanda fəaliyyət göstərən ümumittifaq və beynəlxalq turist marşrutları ləğv olunmuşdur. Belə ki, həmin illərdə müharibə və sərhədlərdəki qeyri-stabil vəziyyət turizm sistemində bir sıra problemlərin yaranması ilə nəticələndi. Ötən əsrin 90-cı illərin sonunda turizmin inkişaf tendensiyası ölkənin ali qanunvericilik aktlarında əksini tapdı. Belə ki, Azərbaycanda turizm sahəsi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi. Ölkənin mövcud turizm potensialının beynəlxalq aləmdə tanınması, turistlərin Azərbaycana çoxsaylı səfərlərinin təşkili, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, müasir turizm infrastrukturunun yaradılması və s. sahələrdə məqsədyönlü tədbirlər planı həyata keçirilməyə başlandı. 1999-cu ildə Ümummilli Lider Heydər Əliyev tərəfindən "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" fərman imzalandı. Bu qanun Azərbaycanda turizm bazarının hüquqi əsaslarının bərqərar edilməsinə yönələn dövlət siyasətinin prinsiplərini, turizm fəaliyyətinin əsaslarını müəyyənləşdirdi, turizm sahəsində münasibətləri tənzimləyərək, sosial-iqtisadi inkişafı təmin edən vasitələrdən biri kimi turizm ehtiyatlarından səmərəli istifadə olunması qaydalarını müəyyən etdi.

Ümummilli Lider Heydər Əliyev tərəfindən təsdiq edilən "Azərbaycan Respublikasında turizmin inkişafına dair 2002-2005-ci illər üçün" Dövlət Proqramının tələblərinə uyğun olaraq, turizm sahəsində beynəlxalq standartlara cavab verən mehmanxanalar tikilib, ölkəyə bir sıra aparıcı beynəlxalq investisiya şirkətləri cəlb olundu. Ulu Öndərin məqsədyönlü fəaliyyətini davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin bütün sahələrə olduğu kimi, turizm sektoruna da ayırdığı diqqətin nəticəsi olaraq uğurlu nəticələr əldə olunub. Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən, turizmin inkişafının yeni mərhələsinə təkan verəcək "Azərbaycan Respublikasında Turizmin İnkişafına dair 2008-2016-cı illər üçün Dövlət Proqramı" hazırlandı. Bu müddət ərzində nümayiş obyekti kimi istifadə olunması məqsədəuyğun hesab edilən bir sıra tarix-mədəniyyət abidələri bərpa edildi və turistlərin istifadəsinə verildi.

Prezident İlham Əliyev tərəfindən turizmə göstərilən diqqətin nəticəsidir ki, bu gün Azərbaycan perspektivli turizm ölkəsinə çevirib. "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı" ölkədə turizmin rastlaşdığı problemlərin həll edilməsinə və turizm sahəsinin daha da inkişaf etdirilməsinə müsbət təsirini göstərir. Müasir dövrümüzdə ölkədə yüksək iqtisadi, sosial və ekoloji tələblərə cavab verən müasir turizm sahəsinin formalaşdırılması və onun ölkə iqtisadiyyatının əsas inkişaf dayaqlarından birinə çevrilməsi təmin edilir. Turizm fəaliyyəti üçün əlverişli şəraitin mövcudluğu, turizm ehtiyatları, ölkənin zəngin coğrafi landşafta malik olması, xalqımızın qədim mədəni-tarixi irsi, eləcə də onun fauna və florası bu sahənin sürətli inkişafına yol açan əsas amillərdir.

### AZƏRBAYCANDA TURİSTLƏRİN YERLƏŞDİRMƏ BİZNESİNİN İNKİŞAFI

2016-cı ildə "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"nin qəbul edilməsi, elektron vizaların verilməsi prosedurunun sadələşdirilməsi və "ASAN Viza" sisteminin yaradılması turizm sahəsinin inkişafında mühüm rol oynadı. Prezident İlham Əliyevin 20 aprel 2018-ci il tarixli "Mədəniyyət və turizm sahəsində dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Sərəncam"ına əsasən Azərbaycan Dövlət Turizm Agentliyinin yaradılması isə bu proseslərə kompleks yanaşmanın məntiqi nəticəsi kimi özünü göstərir.

Turizm sahəsində ixtisaslı kadr hazırlığı xidmət keyfiyyətinin artırılması baxımından önəm kəsb edir. Bu baxımdan Dövlət Turizm Agentliyinin tabeliyindəki Azərbaycan Turizm və Menecment Universiteti, Bakı Turizm Peşə Məktəbi və Mingəçevir Turizm Kollecinin fəaliyyəti xüsusilə əhəmiyyətlidir.

Turizm öz perspektivliyinə görə qeyri-neft sahələri arasında aparıcı mövqelərdən birini tutduğundan Azərbaycanda turistlərin yerləşdirmə biznesi dinamik surətdə inkişaf edir. Turizmin inkişafı və turizm sektorunun ölkə iqtisadiyyatının aparıcı sahələrindən birinə çevrilməsi bu gün Azərbaycanda ən mühüm vəzifə olaraq qarşıda durur. Son illər Azərbaycanda əldə olunmuş sosial-iqtisadi irəliləyiş bu vəzifənin yeni imkanlara adekvat səviyyədə həllinə şərait yaradır. Azərbaycanın turizm sahəsində turizm imkanlarının təbliğ edilməsi, daxili turizmin inkişafı və turizm xidməti infrastrukturunun qurulması sahəsində böyük işlər görülüb və hazırda bu işlər davam etdirilməkdədir. Gün-gündən inkişaf edən respublikanın iqtisadiyyatında turizm sektoru prioritet sahəyə çevrilib. Turizm sahəsində normativ hüquqi bazanın və dövlət tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi, ölkənin turizm potensialından istifadə imkanlarının genişləndirilməsi bu sahənin inkişafında mühüm rol oynayır.

Ölkəmizdə bütün sahələrdə olduğu kimi, turizminin inkişafına da dövlət tərəfindən ayrılan diqqət və qayğı bu sahəni iqtisadiyyatının aparıcı sahəsinə çevirib. Görülən işlər ölkənin müxtəlif bölgələrində turizmin fərqli növlərinin, sağlamlıq, qış, mədəni, işgüzar, ekoturizm və kənd turizmi kimi növlərinin inkişafına ciddi təsir göstərib. Turizm sektorunda göstərilən xidmətlərin yalnız kəmiyyət göstəriciləri baxımından deyil, keyfiyyət baxımından da təkmilləşdirilməsi, turistlərin məmnunluq səviyyəsinin artırılmasına nail olmaq üçün ixtisaslı kadrların hazırlanması prosesi davam etdirilir.

Ölkə başçısının məqsədyönlü və balanslı xarici siyasəti, uğurlu daxili siyasəti nəticəsində Azərbaycan bu gün dünya üzrə ən təhlükəsiz və sabit ölkələr sırasındadır. Bu amil isə müasir dünyada turistlərin səyahət seçimi etməsində ən əsas göstəricidir. Onu da xatırladaq ki, Odlar diyarı kimi səciyyələndirilən ölkəmizdə bu sahənin tərəqqisi üçün geniş potensial vardır.

### AZƏRBAYCANA DÜNYANIN 173 ÖLKƏSİNDƏN 1 MİLYON 4 MİN SƏFƏR EDİLİB

Cari ilin yanvar-avqust aylarında Azərbaycana dünyanın 173 ölkəsindən 1 milyon 4 min və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,3 dəfə çox əcnəbi və vətəndaşlığı olmayan şəxsin gəlməsi ölkəmizin turist ölkəsi olmasına dəlalət edir. Gələnlərin 26,2 faizi Rusiya Federasiyası, 19,8 faizi Türkiyə, 11 faizi İran, 7,9 faizi Səudiyyə Ərəbistanı, 4,7 faizi Gürcüstan, 3,2 faizi Pakistan, 2,7 faizi Hindistan, 2,5 faizi Birləşmiş Ərəb Əmirlikləri, hər birindən 1,9 faiz olmaqla Ukrayna və Qazaxıstan, hər birindən 1,6 faiz olmaqla İsrail və Küveyt, 1,5 faizi Oman, 1,4 faizi Özbəkistan, 1,2 faizi Böyük Britaniya, 10,9 faizi digər ölkələrin vətəndaşlarıdır. Ötən ilin eyni dövrü ilə müqayisədə Səudiyyə Ərəbistanından gələnlərin sayı 407 dəfə, Küveytdən - 167,1 dəfə, Omandan - 148,8 dəfə, Pakistandan - 27,3 dəfə, Hindistandan - 15,1 dəfə, İsraildən - 6,2 dəfə, Bəhreyndən - 6 dəfə, Qazaxıstandan - 5,8 dəfə, Birləşmiş Ərəb Əmirliklərindən - 5,7 dəfə, ABŞ-dan - 3,5 dəfə, Almaniyadan - 3 dəfə, Fransadan - 2,6 dəfə, Böyük Britaniyadan - 2 dəfə, Türkiyədən - 1,8 dəfə, İrandan - 1,7 dəfə, Ukraynadan - 1,7 dəfə, Rusiya Federasiyasından - 1,7 dəfə, Gürcüstandan - 23,2 faiz artıb.2021-ci ilin yanvar-avqust ayları ilə müqayisədə körfəz ölkələrindən gələnlərin sayı 3,5 dəfə artaraq 254,1 min nəfər, Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 2,4 dəfə artaraq 49 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 1,8 dəfə artaraq 335,5 min nəfər olub.Coğrafi mövqeyinə görə, əlverişli bir ərazidə yerləşən Azərbaycanda turizm ən perspektivli və yüksək potensiallı sahə hesab edilir. Dövlətin də turizmə yaxından diqqəti və qayğısı bu sahənin gələcəkdə daha da inkişafına zəmin yaradır. Dövlət büdcəsinin 2025-2030-cu illərə kimi turizm sektorunun inkişafı hesabına genişləndirilməsinin nəzərdə tutulması da təsadüfü deyildi. Onu da qeyd edək ki, Azərbaycanda turizm sahəsində dövlət siyasəti turizmin gələcək inkişafı üçün onun əsas prioritetlərini müəyyən edir.

***Nəzakət ƏLƏDDİNQIZI***



# Səfirliklərimizə hücumlar: pərdəarxası məqamlar nədir?



***Nə zaman ki, ermənilər sərhədlərimizdə baş qaldırıb yeni iddialarda olduqlarını nümayiş etdirir və onlara tərəfimizdən layiqli cavab verilir, bundan dərhal sonra bizim üçün ermənilərin havadarları ilə tanışlıq başlanır. Ermənilər illərlə silahları kimdən aldıqlarını, təchizatlarının kiminlə bağlı olduğunu, arxalarında kimin durduğunu canla-başla gizlətdikləri halda bunların hansı dövlətlərin olduğunun asanlıqla ortaya çıxması da maraqlı hadisələrdəndir. O mənada maraqlıdır ki, sərhədlərimizdəki hadisələrlə səfirliklərimizə basqınlar arasındakı çox qısa zaman fasiləsi bütün gizli məqamlara aydınlıq gətirir. Məsələn, 2020-ci ilin Tovuz hadisələrindən dərhal sonra səfirliklərimizə basqınları, diplomatlarımıza qarşı təcavüzləri yaxşı xatırlayırıq.***

12-14 sentyabr hadisələrindən sonra belə hal ABŞ, London, Livan, Fransa və digər ölkələrdə təkrarlanıb. Bu ölkələrdə yaşayan ermənilərin müxtəlif qruplaşmalar, bəzən isə açıq şəkildə səfirliklərimizə hücumu və həmin dövlətlərin buna göz yumması erməni sevdalılarının onları müdafiə etmək istəyindən başqa bir şey deyil. Erməni sevdalıları deyirik. Əslində isə bu, bir sevda deyil. Həmin dövlətlərin erməniləri çox yaxşı tanımalarından irəli gələn haldır. O mənada ki, həmin dövlətlər erməni kimi xislətsiz qəbiləni əldə saxlayıb ondan bəzi məqamlarda istifadə etməyi zamanın sınağından çıxarmış, bu səbəbdən də ermənini əldə saxlamağın onlara etdiyi sərfi digər bir xalqın dövlət qurumuna hücumdan üstün hesab edirlər.

Haqqın, ədalətin kimin tərəfində olduğunu çox yaxşı bilən, lakin 30 ildəki kimi yenə də qulaqlarını pambıqlayan, gözlərini yumanlar onu da yaxşı bilməlidirlər ki, bütün dünyaya kim olduqlarını sübut edirlər. Sübut edilər ki, ötən 30 ildə Azərbaycanın bütün beynəlxalq təşkilatlar qarşısında Qarabağla bağlı qaldırdığı tələbə niyə susurduq. Sübut edirlər ki, 30 ildə Qarabağ mövzusu ortaya gələndə niyə özümüzü karlığa vururduq. Lakin unudulmayacaq bir məsələ də var ki, səfirliklər, onların yerləşməsi, təhlükəsizliyi haqqında bütün dövlətlər üçün qanunauyğunluqlar mövcuddur. Və bu qanunları pozmağa, təxribata yol verməyə heç kimin haqqı və hüququ yoxdur. Bunun üçün hər hansı münaqişənin törədilməsinə yol verən dövlət beynəlxalq hüquq qarşısında cavab verməlidir.

Azərbaycanın xarici ölkələrdəki diplomatik nümayəndəliklərinə qarşı erməni icmalarının hücumları ilə bağlı Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi açıqlama yayıb: "Son günlərdə Azərbaycanın xarici ölkələrdəki diplomatik nümayəndəliklərinin binalarına qarşı bu ölkədəki erməni icmaları tərəfindən hücumlar törədilməsi ciddi narahatlıq doğurur. Özündə vandalizm və terror elementlərini ehtiva etməklə bu hücumlar diplomatlara, onların mülklərinə xəsarət yetirmək məqsədini güdür, beləliklə də cinayət məsuliyyəti doğuran əməllər kimi səciyyələndirilir. Radikal erməni qruplarının cinayətkar hərəkətlərini qətiyyətlə pisləyirik və müvafiq ölkələrdə bu cür təxribatların qarşısının alınmasına cavabdeh olan qurumların öz vəzifələrinə məsuliyyətlə yanaşmasını gözləyirik. Azərbaycan tərəfi radikal erməni qüvvələrinin törətdiyi vandalizm aktlarının aidiyyəti dövlətlərin hüquqmühafizə orqanları tərəfindən araşdırılmasını və bu cinayətləri törədənlərin hərəkətlərinə hüquqi qiymət verilməsini tələb edir.

Xatırladırıq ki, Diplomatik əlaqələr haqqında 1961-ci il Vyana Konvensiyasına uyğun olaraq, diplomatik nümayəndəliyi hər cür hücumlardan və zərər vurulmasından qorumaq və nümayəndəliyin sakitliyinin pozulmasının və ya şərəfinin təhqir olunmasının qarşısını almaq üçün lazımi tədbirlər görmək yerləşmə dövlətinin xüsusi vəzifəsidir".

Bir-birinin ardınca törədilən təxribatlar əslində ölkəmizə qarşı münasibətləri ortaya qoyur. Bizə kimin dost, kimin düşmən olduğunu göstərir. Qarabağın düşməndən azad edilməsinə münasibətləri, istəkləri ortaya qoyur. 30 il ermənilərin Qarabağı işğal altında saxlamasına əslində razılıqları nümayiş etdirir. Azərbaycanın əzəli torpaqlarından zorla çıxarılan minlərlə insanın hüquqlarına biganəliyi göstərir. Ölkəmizin talanan sərvətlərindən həmin dövlətlərin də mənfəətlənməsini sübut edir.

Ermənilərin yalan donunu geyinib özlərini yazıq, çarəsiz, əzilən xalq kimi təqdim etmələri yəqin ki, bu dövlətlərin tamaşa etdikləri elə bir tamaşadır ki, bundan aldıqları ləzzət onları Azərbaycan həqiqətlərini pərdənin o üzündə görməyə təhrik edir. Amma əslində biz pərdəarxası məqamları görməyi ötən 30 ildə çox yaxşı öyrənmişik. İndi kimin özünü necə aparmasından asılı olmayaq hansı mövqedə dayandığını görən iti gözlərimiz var.

ABŞ Nümayəndələr Palatasının spikeri Nensi Pelosi kimiləri bizə qarşı edilən təxribatları və soyqırımını çox yaxşı bilə-bilə saxta erməni soyqırımına yalançı göz yaşı tökürsə, deməli, məsələ aydındır. Nensi Pelosi kimi tanıdıqlarımız var ki, üzdə bir, arxada başqa əməllərlə məşğul olmaqla əslində kim olduqlarını lap çoxdan tanıdılar bizlərə. Yaxşı da ki, tanımışıq. Tanımışıq ki, yanılmamışıq.

Səfirliklərimizdə törədilən hadisələr bağışlanmaz haldır. İki dövlət arasında sülhün bərqərar edilməsinə kömək göstərmək əvəzinə qızışdırıcı mövqenin nümayişidir. Yenə də xatırlatmaq istəyirik ki, Diplomatik əlaqələr haqqında 1961-ci il Vyana Konvensiyasına uyğun olaraq, diplomatik nümayəndəliyi hər cür hücumlardan və zərər vurulmasından qorumaq və nümayəndəliyin sakitliyinin pozulmasının və ya şərəfinin təhqir olunmasının qarşısını almaq üçün lazımi tədbirlər görmək yerləşmə dövlətinin xüsusi vəzifəsidir. Bu vəzifələri unudanları isə beynəlxalq hüquq qarşısında cavab vermək gözləyir.

***Mətanət MƏMMƏDOVA***

# Ermənilər nə vaxta kimi başqalarının təklifi və ideyaları ilə yaşayacaq?



**HƏRBİ-SİYASİ EKSPERT AÇIQLADI**

"Bu gün cəbhədə baş verən hadisələri hər kəs izləyir. Bilirik ki, Brüssel görüşündən sonra Azərbaycan sülh təkliflərini hazırlayırdı. Lakin belə bir dövrdə bütün baycana törədilən təxribata görə Ermənistan cavab verməlidir. Ermənistanın hərbi, siyasi rəhbərliyi anlamalıdır ki, bütün dünyanın və beynəlxalq ictimaiyyətin gözü qarşısında Azərbaycanın sərhədlərini pozmaq və Azərbaycan sərhədində xidmət aparan əsgərlərə hücum etmək və əsgərləri qətlə yetirmək nə dərəcədə doğrudur və ya Ermənistanın sülhə hazırlığı budurmu? Ermənistan 30 ildir ki, bu cür təxribatlarla Azərbaycana qarşı vandal və terror aktlarından əl çəkmir. Bu gün də onu davam etdirməkdədir, baxmayaraq 44 günlük Vətən müharibəsi dövründə Ermənistan nəticə çıxarmalı idi. Amma biz yenə təklif edirik ki, Ermənistan öz xalqını təhlükə yaratmasın və normal qonşuluq münasibəti saxlasınlar. Terror aktlarından və müharibədən əl çəksinlər. Onlar nə vaxta kimi başqalarının təklif və ideyaları ilə yaşayacaqlar? Onlar öz gələcək imkanlarını düşünsünlər. Ermənistan yeni silah və texnikalara vəsait yönəltmək əvəzinə, rifahlarına yönəltsələr daha yaxşı olar. Biz bilirik ki, bütün yüksəkliklər və strateji zonalar Azərbaycan ordusundadır. Azərbaycan ordusu bütün mülki vətəndaşların təhlükəsizliyini təmin edir".



beynəlxalq nümayəndələrin gözü qarşısında Ermənistanın cəbhədə təxribat törətməsi yolverilməzdir". Bu sözləri SiA-ya açıqlamasında Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, hərbi-siyasi ekspert, polkovnik Cəlil Xəlilov deyib.

O bildirir ki, Azərbaycan dövlət sərhədlərində sülh olmasını istəyir: "Eyni zamanda, Azərbaycan delimitasiya və demarkasiya məsələsinin həllinin tapmasını gözləyir. Kommunikasiyaların açılması da olduqca vacibdir. Belə bir məqamda Ermənistanın təxribat törətməsi dözülməzdir. Ermənistan tərəfi bütün beynəlxalq hüquq normalarını pozaraq beynəlxalq cinayət törətdi. Azər-

***Qönçə Quliyeva***

# "Erməni xisləti terrordan, yaramazlıqdan yoğrulub"



**Demokratik Maarifçilik Partiyasının sədri, millət vəkili Elşən Musayevin "Səs" qəzetinə müsahibəsi**

***- Elşən müəllim, ABŞ-ın nümayəndələr palatasının sədri Nensi Pelosinin Ermənistana səfəri və orada qondarma "erməni soyqırımı"nı ziyarət etməsi, Azərbaycan əleyhinə şər və böhtanlar səsləndirməsi və Ermənistana dəstək verəcəyini bildirməsi, necə hesab edirsiniz, ABŞ-Azərbaycan münasibətlərinə xələl gətirməyə hesablana bilərmi?***

- Düşünürəm ki, Nensi Pelosinin Ermənistana səfəri olduqca ziyanlı və Azərbaycanla ABŞ arasındakı münasibətlərə xələl gətirən bir addım idi. Ona görə də, cəmiyyət tərəfindən, siyasətçilər tərəfindən məlum səfər ciddi şəkildə qınandı. Olmamalı idi belə şey. Ən azından ona görə ki, hər zaman işğala, təxribata meyilli tərəf məhz Ermənistan olub. Bunu hamı bilir. Üstəlik, zaman-zaman, 30 il müddətində 1 dəfə də olsun erməni vəhşiliyi haqda danışmayan, Xocalı faciəsi haqda bəhs etməyən, BMT-nin Qətnamələrini görməzdən keçən Nensi indi gedib Ermənistanda ağlayırsa, burada səmimiyyət, təbiilik ola bilməz. Nensi orada nə düşünürdü, niyə ağlayırdı, güman ki, heç özü də bilmir. Hər halda ağlamalı olduğu yerdə ağlamırdı. Çünki bir insan təcavüzkar üçün, terrorçu üçün ağlamaz. İnsan daşa-divara, mənasız və saxta memorial abidəyə baxıb ağlamaz. Erməni xisləti terrordan, yaramazlıqdan yoğrulub. Erməni hər zaman təxribatçı olub. Erməni hər zaman yalan danışıb. ABŞ və onun rəsmi nümayəndələri bu barədə ciddi düşünməlidir. Əsas da Azərbaycanla münasibətləri nəzərdən keçirdikləri zaman.

***- Azərbaycanın 30 il torpaqlarının işğal altında qaldığı bir dövrdə bir dəfə də olsun Azərbaycana səfər etməyən Nensi Pelosinin Ermənistana səfər etməsi və orada təxribatçı açıqlamalarla çıxış etməsi nədən irəli gəlir?***

- Həqiqətən də, Nensi 30 il müddətində bir dəfə də olsun Qarabağ mövzusu ilə bağlı tutarlı, dolğun, obyektiv açıqlama verməyib. Və hətta deyim ki, nəinki obyektiv, ümumiyyətlə, heç bir açıqlama verməyib. Hərgah, həmin 30 il müddətində ermənin eləmədiyi yaramazlıq qalmadı, hər cür fitnə-fəsad törətdi, torpaqlarımızı işğal altında saxladı, BMT-nin qətnamələrini icra etməkdən boyun qaçırdı, Beynəlxalq Təşkilatlarda saxta təbliğat qurdu, lobbinin əli ilə yalançı məlumatlar yaydı. Nensi bunlar haqda məlumatlı deyildimi? Əlbəttə ki, məlumatlı idi. Həm Nensi, həm də təmsil elədiyi dövlət. Amma səslərini belə çıxarmadılar. Çıxardılarsa da protokol xətrinə. Amma indi gedib mənasız yerlərdə mənasız göz yaşları tökürlər. Heç camaat doğmasının yasında elə ağlamır ki, Nensi Ermənistanda ağlayırdı. Təbii, belə hərəkətlər, belə saxta icraatlar kənardan ikrah doğurur. Anındaca hiss edilir ki, Nensi həqiqətən də səmimi deyil. Sadəcə, rol oynayır.

***- ABŞ Dövlət Katibi Antoni Blinken Azərbaycan Prezidenti İlham Əliyevə zəng etdi. Necə hesab edirsiniz, bu zəng Nensi Pelosinin Ermənistandakı Azərbaycan əleyhinə təxribatçı açıqlamalarına bir üzrxahlıq kimi qiymətləndirmək olar?***

- Mən o telefon zənginin tam təfərrüatları haqda məlumatlı olmadığım üçün konkret nəsə deyə bilmərəm. Tək bildiyim odur ki, ABŞ-ın siyasi elitasında ağıllı və məntiqli düşünən insanlar əsla və əsla Nensinin hərəkətini təqdir etməzlər, edə bilməzlər. Çünki biz hər zaman ABŞ-la normal münasibət saxlamışıq, bu münasibətlər hər zaman qarşılıqlı hörmət və ehtiram əsasında qurulub. İndi isə Nensi belə bir addım atır və necə deyərlər aləmi qarışdırır. Bir daha qeyd edirəm: Olmamalıdır belə şey. Ermənistanın saxta ittihamlarına və uydurmalarına görə illərdir Azərbaycanla ABŞ arasında qurulan münasibətlərə kölgə salmaq olmaz.

***- ABŞ-ın təşəbbüsü ilə yaxın vaxtlarda Vaşinqtonda Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşü keçiriləcək. Bu görüşdən gözləntilər nə ola bilər?***

- Azərbaycanın Xarici İşlər Naziri, çox hörmətli Ceyhun Bayramov ölkəmizi ən gözəl formada təmsil edir. Düşünürəm ki, həssas məsələlərə orada mütləq toxunulacaq və Azərbaycan həqiqətləri bir daha beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılacaq. Amma tam təfərrüatlar, heç şübhəsiz, görüş bitəndən sonra məlum olacaq.

***Gülyana***

# "Nadanlıq sərhəd tanımır"



**Komitə sədri şərh etdi**

"Ordu quruculuğuna ayrılan vəsaitin çox olması Əli Kərimlini bir o qədər də təəccübləndirməlidir. Çünki onların hakimiyyəti dövründə orduya sərf olunmadığı halda dövlətə vurduqları ziyanı, satdıqları torpaqların, viran qoyduqları şəhər və kəndlərin dəyəri Azərbaycan ordusuna indi ayrılan vəsaitdən qat-qat artıq olmuşdur. Allah rəhmət eləsin, hələ şəhid olan insanları demirəm." Bu sözləri SiA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.



Komitə sədrinin sözlərinə görə, təəssüf doğuran haldır ki, Ermənistan mediası bir çox hallarda Əli Kərimlinin, Cəmil Həsənlinin və digər nankorların şərh etdikləri faktlara əsaslanaraq Azərbaycan əleyhinə kompaniya aparırlar.

"Əli Kərimlinin çıxışında səsləndirdiyi, "Milyard dollar israf etmiş ordu bu qədər itki verməməliydi", fikrinə istinad edən ermənilər itkilərimizin sayını qat-qat artırmaqla insanlar arasında təşviş yaratmağa, uğurlarımıza kölgə salmağa çalışırlar. Guya ki, şəhidlərimizin sayı gizlədilir və Əli Kərimlinin fikrincə, "Yeni Azərbaycan Partiyası bir daha göstərdi ki, onun üçün prioritet məsələ Qarabağ deyil, öz hakimiyyətinin qorunub saxlanmasıdır". Belə çıxır ki, Qarabağ torpaqları Xalq Cəbhəsi - Əli Kərimlilər hakimiyyətdə olarkən düşmənə təslim edilməmişdir. Yaxud, Qaradağlı, Xocalı soyqırımları, Şuşanın, Laçının, Kəlbəcərin və digər ərazilərimizin iş-ğalı onların hakimiyyəti dövründə yox, eramızdan əvvəl baş vermişdi. Əli Kərimli başa düşmürmü ki, milyonlarla dollar sərf edilib, nizami - çevik ordu yaradılmasaydı onların satdıqları, düşmənə təslim etdikləri torpaqları təcavüzkarlardan azad etmək mümkün olmazdı? Bu gün dövlətin iqtisadi gücü varsa o, daha çox vəsait ayırıb torpaqlarının təhlükəsizliyini təmin etməyə, insanları təcavüzkarlardan qorumağa borcludur. Şəhidlərimizin taleyi haqqında Əli Kərimlinin düşünməsi, xal toplamaq hesabına yalandan səs-küy salması da əbəsdir. Çünki xatirəsi hər birimiz üçün əziz olan bu oğullar torpaq uğrunda, ana-bacılarının xoşbəxtliyi yolunda şəhid olduqları üçün unudulmazdırlar, əbədi hörmət və ehtirama layiqdirlər. Onların ruhu şaddır və qürurludurlar. Əli Kərimli kimi torpaq satıb beş-on manatın xatirinə millətinə və vətəninə dönük çıxıb, yadlara əyilənlərə isə bu cəmiyyətdə yer yoxdur, onların amalı, məqsədi onun-bunun hesabına yaşayıb dövlətimizin uğurlarına kölgə salmaqdır. Bu da nankorluq, dönüklük və xalqa xəyanətdir.

***İnam Hacıyev***

## Tik-Tok-un bağlanması doğru addımdırmı?



**Elçin Bayramlı**

***Son günlərdə Azərbaycanda Tik-Tok sosial şəbəkəsinə girişin bağlanması ictimaiyyət arasında müzakirələrə səbəb olub. Bu platformadan istifadə edən insanlar müxtəlif mövqelər ortaya qoyurlar. Cəmiyyətin intellektual, əxlaqlı hissəsi bu şəbəkənin bağlanmasını dəstəkləyir, digər hissə isə etiraz edir. Hər tərəfin öz arqumentləri var. Məsələyə hər iki tərəfdən baxmağa çalışaq.***

Bağlanmaya etiraz edənlər deyir ki, bəs Tik-Tok-da digər sosial şəbəkələr kimi adi boş platformadır və özü heç nə yaymır. Bütün şəbəkələrdə materialları yayanlar bizim insanlarımızdır. Üstəlik, bu şəbəkədə xeyli sayda faydalı kanallar var- sağlamlıq və tibb sahəsində maarifləndirici, elmi-texnoloji məlumatları yayan, yaradıcılıqla bağlı videolar paylaşan, sosial problemlərin işıqlandırılması ilə məşul olan və ya sadəcə xəbər yayan və s. Bir çox media orqanlarının, təşkilatların da burada kanalı var və insanlar onları izləyirdi.

Bağılanmanı dəstəkləyənlər isə deyir ki, bu şəbəkədə milli-mənəvi dəyərlərimizə zərbə vuran, uşaq və yeniyetmələrin əxlaqını pozmağa yönələn hər cür murdar videolar, +18 materiallar çoxdur. Hətta ən biabırçı videolara burada rast gəlmək olur. Həm də bu şəbəkədə videolar ardıcıl göstərildiyindən və qarşına nə çıxacağını bilmədiyindən hər cür rəzil səhnələri görürsən.

Göründüyü kimi, hər iki tərəfin arqumentləri əsaslıdır. Toparlasaq belə bir reallıq ortaya çıxır- bəli, Tik-Tok sadəcə boş platformadır, özü heç nə yaymır, orada materialları yayan bizik. Burada çox sayda faydalı kanallar da var. Lakin paralel olaraq ən qəbuledilməz videolar da burada daha çox yayımlanır. Deməli, faydalı tərəflərdən daha çox zərər vuran tərəfləri var.

Baxmayaraq ki, rəhbəri olduğum TvPress.Az-ın Tik-tokda böyük kanalı var və orada paylaşılan tv çıxışlarım və sosial problemlərlə, milli-mənəvi dəyərlərimizin müdafiəsi ilə bağlı digər videomateriallar yarım milyonadək baxılır, yenə də Tik-Tokun bağlanmasının tərəfdarıyam. Həm də təkcə onun yox, İnstagramın da. Xalqımızın son 30 ildə aparılan qlobal psixotron terrordan salamat qalan mənəvi dəyərləri də bu şəbəkələrdə məhv edilir, gənc nəsil avara, əyləncə və bambılılıq üzrə ümumilli çempionat iştirakçısı kimi yaşayan amorf məxluqlara çevrilir.

Ümumiyyətlə, bütün sosial şəbəkələr saxta və zərərli məlumat yığınıdır. Dəyərlərimizi məhv edən təbliğat meydanıdır. Zərəri faydasından min dəfə çoxdur. İstənilən vaxt bir ölkədə təxribatlar və vətəndaş müharbələri törətmək gücündədirlər. Ərəb baharını xatırlamaq kifayətdir.

Qlobal şəbəkələrin açarı bizim əlimizdə deyil. Bu mərkəzlər istədikləri informasiyanın sürətlə yayımlamasını təmin edir, özlərinə sərf etməyən məlumatların isə bloklanmasını təmin edirlər. Məsələn, Ermənistanın işğalçı siyasəti, ermənilərin terror və soyqırımları ilə bağlı məlumatları yayan şəxslərə qarşı məhdudlandırma və blok qoyulur. Çünki Ermənistan hakimiyyətinin sahibləri bu qlobal şəbəkələrin sahibləridir.

Şəxsən son 15 ildə mənim bütün profil, kanal, səhifələrim bu səbəbdən dəfələrlə uzunmüddətli blok edilib və hazırda da hamısı məhdiyyətlət altındadır. Yaydığım materialı, yazdığım fikri çox az adama göstərir. Amma TikTokda həmin çıxışlarımı paylaşanda yüzminlərlə, bəzən yarım milyon baxış olurdu. Bir də Kontakt və Telegram şəbəkəsində erməniləri ifşa edən materialları paylaşanda heç bir məhdudiyyət olmur. Bu 3 şəbəkə qlobalistlərin əlində deyil. Feysbuk, İnstagram, Tvitter və Yutub isə qlobalistlərin əlindədir.

Ümumiyyətlə, neçə illərdir Azərbaycanda bütün sosial şəbəkələrin bağlanması, bir milli sosial şəbəkə yaradılmasını təklif edirəm. Əks halda olan-qalan dəyərlərimiz də məhv olub gedəcək, ortalıq saxta xəbər, dezinformasiya, təxribat xarakterli materiallarla dolacaq. Gənc nəsil də zombi kimi yetişəcək. Bunun qarşısı alınmalıdır.

# Nensi Pelosinin məqsədi seçkilərdə erməni səslərini qazanmaqdır



ANALİTİK

***Məlum olduğu kimi, ABŞ Konqresi Nümayəndələr Palatasının spikeri Nensi Pelosi Ermənistana səfər etdi və onun səfər zamanı səsləndirdiyi bəyanatları bilavasitə Ermənistanın sülh prosesinə yaratdığı əngəllərə təkan verdi. Bu səfər həm də açıq-aşkar Azərbaycanın regiondakı fəaliyyətinə qarşı açıq-aşkar çıxması amilini də ortaya qoydu.***

Ümumiyyətlə, özünü "təcrübəli siyasətçi" kimi qələmə verən bu şəxsin eləcə də Nümayəndələr Palatasının rəsmisi olaraq reallıqdan uzaq, qərəz dolu açıqlamalar verməsi son dərəcə təəccüblüdür. Belə ki, Azərbaycanla Ermənistan arasında delimitasiya olunmamış şərti sərhəddə təcavüzkar dövlət tərəfindən törədilən hərbi təxribatı daim sülh çağırışları ilə çıxış edən Azərbaycanın üzərinə qoymaq, qeyri-obyektiv və birtərəfli mövqe sərgiləmək hələ də davam edən ikili standartların təzahürüdür.

### Ortada BMT Təhlükəsizlik Şurasının qətnamələri var idi və bu qətnamələrə 30 il əməl olunmadı!

Başqa tərəfdən, fakt budur ki, artıq fəaliyyətinə ehtiyac qalmamış və ölü quruma çevrilmiş ATƏT-in Minsk qrupunun həmsədr ölkəsinin nümayəndəsi olaraq Pelosinin birtərəfli qaydada Ermənistanın təcavüzkar siyasətinə dəstəyi artıq bütün hədləri aşdığını göstərir. Məhz bu məqamda sual edilə bilər ki, Nensi Pelosi 30 il davam edən Ermənistanın işğalından xəbərsiz idi?! Çünki ortada BMT Təhlükəsizlik Şurasının qətnamələri var idi və bu qətnamələrə 30 il əməl olunmadı. Həmçinin sual oluna bilər ki, niyə ABŞ rəsmiləri, eləcə də Amerika demokratları, həmçinin Nensi Pelosinin özü bir dəfə də olsun səsini çıxarmadı, bir milyondan artıq azərbaycanlı məcburi köçkünün üzləşdiyi acınacaqlı vəziyyətlə bağlı bəyanat vermədi?!

### Ermənistan öz dəyişməz xain maraqlarına uyğun olaraq prosesi ləngitməyə çalışır

Lakin baş verən hər şeyə rəğmən, bu gün bütün dünya agahdır və görür ki, Azərbaycan işğaldan azad etdiyi ərazilərdə abadlıq-quruculuq işləri aparır, uzun illər hüquqları pozulmuş sakinlərin həmin ərazilərə qayıtması üçün əlindən gələni edir. Ancaq buna baxmayaraq, revanşist və işğalçılıq xisləti sönməyən Ermənistan öz dəyişməz xain maraqlarına uyğun olaraq prosesi ləngitməyə çalışır. Biz elə də uzağa getməyərək, 44 günlük Vətən müharibəsindən sonra Ermənistanda istehsal olunan minaların basdırılmasını, terror aktlarını, silahlı təxribatları xatırlaya bilərik. Maraqlıdır ki, bu cür reallıqlar ortada olaola Ermənistanı sülhə dəvət edən, münasibətlərin normallaşmasına çalışan, regionda davamlı sabitliyin və təhlükəsizliyin təmini üçün səylər göstərən bir dövlətin üstünə böhtan atmaq, ünvanına xoşagəlməz ittihamlar səsləndirmək ən azı ədalətsizlikdir.

### Demokratlar bu dəfə də Amerikada yaşayan erməni seçicilərinin səs çoxluğunu qazanmaq üçün dəridən-qabıqdan çıxırlar

Əslində isə, Pelosinin ermənipərəstlik mövqeyindən çıxış etməsi arxasında dayanan əsas bir məqam da vardır - bu, Konqresin Nümayəndələr Palatasına keçiriləcək seçkilərlə bağlıdır. Məlumdur ki, noyabrın axırlarında ABŞ Konqresinə aralıq seçkiləri keçiriləcək və demokratlar bu dəfə də Amerikada yaşayan erməni seçicilərinin səs çoxluğunu qazanmaq üçün dəridən-qabıqdan çıxırlar.

Bütövlükdə isə, erməni lobbisini öz tərəfinə çəkmək üçün iki ölkə arasında münasibətlərin düzəlməsinə mane olacaq, Ermənistanda revanşist dairələrin əl-qolunu açacaq, sülh və təhlükəsizliyi təhdid edəcək belə bir qeyri-obyektiv bəyanatın səsləndirməsi faktı Nensi Pelosinin şəxsi nüfuzuna və siyasi imicinə xələl gətirəcəyi sözsüzdür!

***Rəfiqə HÜSEYNOVA***

# Heç kim və heç nə bizim qarşımızı ala bilməz!

### AXCP sədri Əli Kərimli, xarici ölkələrdə özlərini erməni puluna satan xainlər dəstəsinin üzvləri əsla öz mənfur niyyətlərinə çata bilməyəcəklər

Fakt budur ki, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu növbəti dəfə sərhədlərimizdə törətməyə cəhd etdiyi təxribata əl atan düşmənin başını əzib, ona ölümcül zərbə endirib. Və daha bir fakt budur ki, reallıqda erməni anaları üsyana qalxıblar və erməni hakimiyyətini qınayırlar ki, nəyə görə övladlarını güclü Azərbaycan Ordusunun qarşısına göndərərək məhv etdirir. Əbəs deyil ki, erməni valideynləri və xalqı Nikol Paşinyanın istefasını tələb edirlər. Paşinyan isə bütün bunlara etinasız yanaşaraq öz iqtidarını müxtəlif vasitələrlə möhkəmləndirməyə çalışır. Misal üçün, ümidini Amerika Konqresinə bağlayır, Nensi Pelosinin səfərini az qala özünün "dipolomatik qələbəsi" kimi zorla erməni cəmiyyətinə sırımağa çalışır.

### Belələri əsla müqəddəs şəhidlik sözünü dillərinə gətirməməli və xalqımızın heysiyyatı ilə oynamamalıdırlar

Reallıq hissini və insanlıq duyğusunu çoxdan itirərək buyruq quluna çevrilmiş radikal müxalifət ünsürlərinə xatırlatmaq istərdik ki, sentyabrın 12-dən 13-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin Basarkeçər, İstisu, Qarakilsə və Gorus yaşayış məntəqələri istiqamətində yerləşən bölmələri tərəfindən Azərbaycan Ordusunun Daşkəsən, Kəlbəcər və Laçın rayonları ərazisindəki bəzi mövqeləri, sığınacaqlar və dayaq məntə-




**Fuad Heydər, YAP Səbail rayon təşkilatının təlimatçısı**

qələri müxtəlif çaplı silahlar, o cümlədən minaatanlardan intensiv atəşə tutulub. Məhz bundan sonra Azərbaycan Silahlı Qüvvələri düşmənin təxribatçı əməllərinə qarşı lazımı tədbirləri görüb. Həmçinin vicdan, məntiq və şərəf yoxsulu olan bu kimi kimi erməni təəssübkeşlərinə bir daha xatırlatmaq istərdik ki, Azərbaycan tərəfi Ermənistanı sülhə məcbur etmək və düşmən ölkədə baş qaldıran revanşist ideyaların məhv edilməsi üçün əlində olan bütün qüvvə və vasitələrdən bundan sonra da istifadə edəcək. Beləlləri əsla müqəddəs şəhidlik sözünü dillərinə gətirməməli və xalqımızın heysiyyatı ilə oynamamalıdırlar. Xalq hiddətlə və qəzəblə belə ünsürlərin əməllərini qınayır və onlara qarşı hüquqi qiymətin veriləcəyinə şübhə etmir.

### Bu gün belədir və söz yox ki, sabah da belə olacaq!

Ancaq daha bir fakt budur ki, erməni havası ilə oynayan milli xainlər yığnağı da düşmənlər qədər bu kimi siyasi eybəcərliklərə şərik qoşulurlar. Məsələyə daha dəqiq yanaşsaq deyə bilərik ki, sapı özümüzdən olan baltalar da ermənilər qədər özlərinə yer tapa bilmirlər və əsasən, aldıqları kirli sifarişlər kontekstində qalib ölkəmizin imicinə şəhid adları üzərindən zərbələr vurmağa cəhdlər göstərirlər. Halbuki biz qalibik və düşmənin başını öz yuvasındaca əzən güclü dövlətik!

### Söz yox ki, hər zaman olduğu kimi, belələrinin də cavabları verilir, bundan sonra da veriləcək!

Sözdə özlərini müxalifət liderləri adlandıran marginallar isə son şanslarını da itiriblər. Bəli, itkilərimiz var, şəhidlər vermişik. Belə bir məqamda xalqın yanında olmaq əvəzinə, onlar ermənilərin yanında oldular. Erməni ekspertlərin söylədikləri ilə özünü "Milli Şura", "müstəqil bloqer" adlandıran, xaricdə oturub gecə-gündüz şərböhtan ifrazıyla məşğul olanların mövqeyini bir-bir müqayisə edirəm. İnanın ki, tam üst-üstə düşür. Buradan da əmin olursan ki, bu, antimilli ünsürlər eyni mərkəzdən - erməni lobbisi və onlarla əlbir olan bəlli Qərb dairələrindən idarə olunurlar. Söz yox ki, hər zaman olduğu kimi, belələrinin də cavabları verilir, bundan sonra da veriləcək.

Ancaq hər bir azərbaycanlı yaxşı bilir ki, antimilli ünsürlərin12 sentyabr hadisələri ilə bağlı qeyri-obyektiv, daha çox isə böhtan xarakterli ittihamları erməni lobbisinin dirijorluğu ilə aparılan informasiya müharibəsindən başqa bir şey deyil. Əslində anti-Azərbaycan şəbəkənin və erməni lobbisinin ölkəmizə qarşı apardıqları şərböhtan kampaniyası sabun köpüyünə bənzər mənasız qara-qışqırıqdan başqa bir şey deyil.

# Erməni hərbi eksperti heyranlıqla etiraf etdi ki...

***Van Hambarsumyan: "Azərbaycan Silahlı Qüvvələrinin nə qədər nəhəng ərazini nəzarət altına aldıqlarını öyrəndikdən sonra şok keçirdim"***



REALLIQ

Ermənistanın hərbi-siyasi rəhbərliyinin sentyabrın 12-13-də planlaşdırdıqları təxribat-diversiya hərəkətlərinin qarşısı Azərbaycanın qəhrəman Ordusu tərəfindən qətiyyətlə alındıqdan sonra bu reallığı erməni hərbi ekspertləri də etiraf etməyə başlayıblar. "Azərbaycan Silahlı Qüvvələrinin nə qədər nəhəng ərazini nəzarət altına aldıqlarını öyrəndikdən sonra şok keçirdim. Bu, nəhəng rəqəmlərdir. Onların səslənməsini erməni hərbi rəhbərliyinin vicdanına buraxıram. Qoy onların özləri həmin rəqəmləri - əsirlərin, öldürülənlərin və yaralananların rəqəmlərini açıqlasınlar".

Erməni hərbi eksperti: "Həmin ərazilər yalnız böyüklüyü baxımından deyil, həm də strateji əhəmiyyəti baxımından diqqət çəkməkdədir"

SİA xəbər verir ki, bu sözləri Ermənistanın tanınmış hərbi eksperti, əsasən öz mülahizə və rəylərində yalan informasiyalara yol verməyərək, obyektivliyi ilə seçilən Van Hambarsumyan bildirib. Onun sözlərinə görə, Ermənistanın hərbi rəhbərliyi Azərbaycan Ordusunun nəzarəti altına keçən ərazilərinin nə qədər əhəmiyyətli olduğunu hələ də anlamırlar. "Həmin ərazilər yalnız böyüklüyü baxımından deyil, həm də strateji əhəmiyyəti baxımından diqqət çəkməkdədir", deyən Hambarsumyan onu da bildirib ki, döyüşlər dayandırıldıqdan sonra strateji yüksəklikləri nəzarəti altına almağa müvəffəq olmuş Azərbaycan Silahlı Qüvvələri istər atəş məsafəsi, istərsə də vizual nəzarət cəhətindən deməк olar ki, bir sıra strateji yolları izləyə bilir.

Hərbi ekspertinin fikirlərinin təməlində xüsusi təyinatlı dəstələrin və s. birliklərin müxtəlif relyeflərdə və dağlıq ərazilərdə peşəkarlıq səviyyələrinin yüksək hazırlıq faktoru dayanır

Van Hambarsumyan fikirlərinin sonunda daha bir diqqət çəkən proqnozunu irəli sürüb. O, tezliklə hərbi əməliyyatların davam edəcəyi fikrində olduğunu bildirib.

Qeyd edək ki, erməni hərbi ekspertinin fikirlərinin təməlində məhz Azərbaycan Silahlı Qüvvələrinin, xüsusi təyinatlı dəstələrinin və s. birliklərinin müxtəlif relyeflərdə və eləcə də dağlıq ərazilərdə peşəkarlıq səviyyələrinin yüksək hazırlıq faktoru dayanır. Təəssüf ki, bu dəfə də ağır məğlubiyyətə uğrayan düşmən tərəfi cəmi iki il əvvəl başlarına gələnləri tez unudurlar və görünür, zaman-zaman onlara bəzi xatırlatmaları etmək lazım gəlir, ta ki ağıllanana qədər. Görünür, Van Hambarsumyan tezliklə hərbi əməliyyatların davam edəcəyi fikrində olduğunu da həmin məntiqdən, eləcə də son proseslərdən doğan nəticələrdən çıxarışlar edərək bildirib.

***Rövşən RƏSULOV***

***Son günlər Azərbaycan-Ermənistan sərhəddində baş verənlər, Ermənistanın ABŞ, Fransa, BMT və KTMT-yə müraciət etməsi ilə yaranmış vəziyyətlə bağlı Rusiya Beynəlxalq Əlaqələr Şurasının eksperti Aleksey Naumov "Moskva-Baku" portalına müsahibəsində maraqlı fikirlər səsləndirib. Müsahibəni (ixtisarla) oxucularımıza təqdim edirik.***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

# "Regionun taleyini Ermənistan-Qərb birliyi deyil, Moskva-Bakı-Ankara üçlüyü həll edəcək"



**- Azərbaycanla sərhəddə vəziyyətin gərginləşməsi ilə bağlı KTMT missiyasının Ermənistana göndərilməsi nə deməkdir?**

- KTMT-nin özündə də hər şey aydın şəkildə qeyd olunub. Mən Azərbaycanın hərəkətlərinə hansısa sərt reaksiyanın olacağı bir real ssenari gözləmirəm. Bu sadəcə mümkün deyil. Azərbaycan Rusiyanın müttəfiqidir və Ermənistandan başqa bütün KTMT dövlətləri ilə çox yaxşı münasibətlərə malikdir. Ermənistan isə təşkilatda əsas skripka deyil. Mən KTMT-nin bu işə qarışmasını xarici siyasətdən daha çox siyasi və ilk növbədə daxili erməni məsələsi hesab edərdim. Missiya daha çox Ermənistanı sakitləşdirmək, Paşinyanın üzünü xilas etmək üçün göndərilib, xüsusən də Ermənistan hazırda KTMT-nin rəhbəri olduğu üçün ona nəyinsə qərar verə bilməcəyini göstərmək lazımdır. KTMT müttəfiqləri qərara gəldilər ki, məsələni ancaq sülh yolu ilə həll etməyə hazır olduqlarını göstərmək lazımdır. Və əslində Azərbaycan strukturun üzvü olmasa da, buna qarşı da deyil.

Yeri gəlmişkən, biz çox gözəl bilirik ki, bizə məlum olan başqa bir hərbi-siyasi ittifaqda - NATO-ya üzv olan dövlətlər arasında (məsələn, Türkiyə ilə Yunanıstan) mütəmadi olaraq atışmalar olur və NATO dövlətlərindən heç biri bu atışmalara qarışmaq istəmir.

Amma Nikol Paşinyanın özünün münasibətlərini və Ermənistanın KTMT ilə münasibətlərini indiki halda necə təqdim edir, məncə, siz buna fikir verməməlisiniz. Ən azından, bu cür missiya heç nəyi həll etməyəcək. Və onun belə təqdimatı daha çox daxili auditoriyaya yönəlib- görürsən, mən bunu edə bilirəm- deyə.

Bakı missiya göndərməyə anlayışla yanaşır. Azərbaycan başa düşür ki, bunun arxasında mühüm heç nə yoxdur. Bakı Qarabağ istiqamətində və ümumilikdə Ermənistanla münasibətlərdə çox ardıcıl və düşünülmüş siyasət aparır. Ondan impulsiv və kəskin addımlar gözləmək qəribə olardı. Təbii ki, nə baş vermiş eskalasiya, nə də KTMT missiyasının göndərilməsi Cənubi Qafqazdakı vəziyyətin vektoruna təsir göstərməyəcək. Qarabağın qalan hissəsi Azərbaycana qayıdacaq, Zəngəzur dəhlizi də açılacaq.

Bundan başqa, KTMT missiyasını Ermənistana göndərərkən qaranlıq otaqda qara pişik axtarmağa ehtiyac yoxdur. Rusiya öz siyasəti ilə hər vasitə ilə göstərir ki, Azərbaycan onun müttəfiqidir, onunla çoxvektorlu və çoxformatlı münasibətləri dərinləşdirməyi və inkişaf etdirməyi planlaşdırır. Rusiyanın Azərbaycanla mübahisə etmək üçün heç bir səbəbi yoxdur. Rusiya və Azərbaycan öz müttəfiqlik münasibətlərini rəsmiləşdirdilər. Kənar qüvvələr nə qədər çalışsalar da, bu ittifaqa ziyan vuracaq səbəblər yoxdur və olmayacaq da. Bu gün Rusiya ilə Azərbaycan arasında daha da inkişaf edən geosiyasi və geoiqtisadi əlaqələr var.

Rusiyanın Ukraynadakı xüsusi əməliyyatı fonunda Rusiya və Türkiyə münasibətlərini daha da, inanılmaz dərəcədə gücləndirməyə başladılar. Azərbaycan və Türkiyə müttəfiqdir. Ölkələrimiz yeni gündəmdə, yeni formalaşmaqda olan çoxqütblü dünyada tam əməkdaşlıq və qarşılıqlı faydalı, o cümlədən qarşılıqlı milli strateji maraqları nəzərə almaqla, əməkdaşlıq edir.

Nikol Paşinyanın yerinə hansısa revanşist militarist gəlsə, Ermənistan-Azərbaycan nizamlanmasında problem yarana bilər. Ermənistanın qarşıdurma hakimiyyətinin gələcəyi yoxdur - regionun əsas oyunçuları bölgədə uzunmüddətli status-kvonun saxlanmasında maraqlı deyillər. Onlar problemlərin həlli, inkişaf və əməkdaşlıqda maraqlıdırlar.

**- Prinsipcə, İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra ən böyük eskalasiya niyə baş verdi?**

- Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması ilə bağlı vəziyyət bir qədər ləngimiş mərhələdədir. Avqustun əvvəlində Azərbaycanın hərbi əməliyyatını Ermənistanın təxribatına cavab kimi xatırlayırıq. Beləliklə, Azərbaycan sülh prosesini irəli aparmaq üçün Ermənistanın təxribatlarından istifadə edir, silahlı qüvvələrinin imkanlarını nümayiş etdirərək, məsələnin sülh yolu ilə həllinə alternativ olmadığını göstərir. Azərbaycan həm diplomatik, həm də hərbi gücü özündə birləşdirən kompleks yanaşmadan istifadə edir. İndi o, Ermənistana öhdəsindən gələ bilməyəcəyi fəlakətli alternativi xatırladır. Bunun dərk edilməsi daha da kəskinləşəcək və Ermənistan hakimiyyətinə seçim qoymayacaq və ehtiyatlılığa gətirib çıxaracaq.

Yeri gəlmişkən, daha bir diversant qrupunun azad edilərək Bakıdan İrəvana köçürülməsi də Azərbaycan tərəfinin nizamlamaya kompleks yanaşmasının göstəricisidir. Azərbaycan "yazıq bədbəxt" Ermənistanı qorxudan bir növ quldur kimi görünmək istəmir. Azərbaycan özünü beynəlxalq siyasətin tamhüquqlu sivil iştirakçısı kimi göstərir. Və eyni zamanda, o, çubuqdan və kökədən ağıllı şəkildə istifadə edir, göstərir ki, o, Rusiya, Azərbaycan və Ermənistan liderləri tərəfindən bəyan edilmiş məqsədə çatmaq üçün hər cür hərəkət edir. Azərbaycan hərtərəfli, balanslaşdırılmış strateji yanaşma nümayiş etdirir - biz Laçın dəhlizinə alternativ yolu vaxtından üç dəfə tez çəkirik, diversantları təhvil veririk, erməniləri Azərbaycan pasportları ilə təmin etməyə hazırıq. Xatırlayırıq ki, Qarabağ münaqişəsi zamanı diplomatiya uğur qazana bilmədi. Azərbaycan 2020-ci ilin payızında Ermənistanın növbəti təxribatına cavab olaraq hərəkətə keçməli oldu.

**- Paşinyan bir gün əvvəl çətin qərarlar verməyə - yəni, görünür, Azərbaycanla sülh imzalamağa hazır olduğunu açıqladı. Eskalasiyadan sonrakı bəyanatlar ənənəvi olaraq Azərbaycanın ünvanına ittihamlarla - günahı onun üzərinə atmaqla, sülhə hazır olmaq barədə bəyanatları davam etdirməklə zənginləşdi... Bundan sonra Paşinyan ŞƏT-də iştirakdan imtina etdi. Paşinyanın bəyanatlarından sonra İrəvanda etirazlar yenidən başlayıb, amma güclü deyil...**

- Paşinyanın ŞƏT-də iştirakdan imtina etməklə bir tərəfdən göstərmək istəyirdi ki, vətəni təhlükə altında olanda o, beynəlxalq əməkdaşlıq və yeni çoxqütblü dünyanın formalaşmasını müzakirə edən lider kimi görünə bilməz. İkincisi, Paşinyan özü də getmək istəmirdi. Çünki anlayırdı ki, orada Putindən başqa Əliyev və Ərdoğan da olacaq, başlayacaqlar ki, "Nikol, sülhə getmək lazımdır", "Nikol, imza atmaqdan başqa yol yoxdur". Və ümumiyyətlə, orada toplaşanlar Hindistan istisna olmaqla azərbaycanpərəstdirlər. İndi o, həqiqətən də həsəd aparılmaz vəziyyətdədir. Və Putin, Əliyev və Ərdoğan müəyyən qədər vahid cəbhə kimi çalışacaqlar. Onlar bir-birini başa düşəcəklər. Çünki əgər Paşinyanın hamıya müqavimət göstərmək və hakimiyyəti saxlamaq kimi vəzifələri varsa, bu, yalnız Cənubi Qafqaz bölgədəki vəziyyətin yekun tənzimlənməsi yolu ilə mümkündür. Onların yerində saymağa vaxtı yoxdur, Ermənistan isə əyləc amilidir. Buna görə də, onu itələmək lazımdır. Böyük qonşular bunu edəcək. Bu, həm də Putin və Ərdoğan, Putin və Əliyev arasında danışıqların mövzusudur. Ölkələrimizin rəhbərləri bir-birini başa düşəcək və razılığa gələcəklər.

İndi İran Səmərqənd sammitində ŞƏT-ə üzv olur. Rusiya və Azərbaycana dost olan Belarus da buradadır. Ötən həftə Bakıda Rusiya, Azərbaycan və İran strateji əhəmiyyət kəsb edən Şimal-Cənub nəqliyyat dəhlizinin tikintisinin başa çatdırılması haqqında bəyannamə imzalayıblar.

Ardı Səh. 15

# "Regionun taleyini Ermənistan-Qərb birliyi deyil, Moskva-Bakı-Ankara üçlüyü həll edəcək"

Əvvəli-Səh-14

Vaxtilə əməkdaşlıq üçün yaradılmış, bu gün geosiyasi və geoiqtisadi reallıqlara cavab verən strukturlar dirçəlir və real əməkdaşlığa, qarşılıqlı fəaliyyətə, konkret layihələrin həyata keçirilməsinə başlayır. Ermənistan-Azərbaycan nizamlanması, Cənubi Qafqazda nəqliyyat və iqtisadi əlaqələrin blokunun açılması isə böyük əməkdaşlıq prosesinin tərkib hissəsidir. Ona görə də Ermənistan buna sürüklənəcək.

**- Qərbin eskalasiyaya reaksiyasını gördük. Olduqca fırtınalı olduğu ortaya çıxdı, bu, uzun müddətdir ki, baş vermir. Bütün əsas beynəlxalq və Avropa strukturları eskalasiyaya reaksiya verdi. Hadisənin ertəsi günü Aİ-nin xüsusi nümayəndəsi bölgəyə gəldi və bundan əvvəl Avropa diplomatiyasının rəhbəri hərbçiləri eskalasiyadan əvvəlki mövqelərinə qayıtmağa çağırdı. Fransa Azərbaycanı Ermənistanı atəşə tutmaqda ittiham etdi, Makron özü isə bildirdi ki, Ermənistanın ərazi bütövlüyü pozulmamalıdır. İndi isə Ermənistanın xahişi ilə Fransa BMT Təhlükəsizlik Şurasının iclasını keçirib, həmin iclasda Ermənistan Azərbaycana qarşı ittihamlar səsləndirib və "Qarabağ münaqişəsi"nin Təhlükəsizlik Şurası vasitəsilə həlli təklifi ilə çıxış edib.**

- Azərbaycan həmişə Qərb üçün əlverişsiz dövlət olaraq qalacaq. İmkan düşdükcə birdən-birə insan haqlarından danışacaqlar, yeni anti-Azərbaycan qətnaməsi çıxaracaqlar... Ona görə də neft hasil edən dövlət kimi Azərbaycanın bütün faydalarına baxmayaraq ona təzyiq edəcəklər. Üstəlik, Azərbaycan müstəqil siyasət aparır, bu, xüsusilə bu gün özünü büruzə verir, o, həqiqətən də suveren və heç kimdən asılı olmayan, bu yeni formalaşmaqda olan qlobal çoxqütblü dünya nizamına mükəmməl uyğun gələn az sayda dövlətlərə aiddir. Qərb bunu bəyənmir. Ona görə də sıx iqtisadi əməkdaşlığa baxmayaraq, Qərb hər bir halda Bakıya təzyiq göstərəcək, ona təsir göstərməyə çalışacaq. İlham Əliyev bunu çox gözəl anlayır və Amerika və Avropanın qərəzli təşəbbüslərinə uyğun şəkildə cavab verir.

Azərbaycanın kiminlə real müttəfiqlik münasibətləri olduğu aydındır - həm Türkiyə, həm də Rusiya ilə. Ermənistanın BMT Təhlükəsizlik Şurasında verdiyi bəyanatlara gəldikdə, aydındır ki, o, ənənəvi olaraq özünü zərərçəkmiş tərəf kimi göstərməyə, Azərbaycana qarşı bəzi ittihamlar irəli sürməyə çalışır, amma işin mahiyyəti dəyişmir - o, işğalçı bir ölkədir. Beynəlxalq hüquqa zidd olaraq Azərbaycan ərazilərini 30 ilə yaxındır ki, işğal edib. Bu 30 ildə nə BMT Təhlükəsizlik Şurasının, nə də ATƏT-in Minsk qrupunun mexanizmi Qarabağ münaqişəsinin həllinə kömək etməyib. Əslində burada nə demək olar - qoy Ermənistan əvvəlcə Ermənistan-Azərbaycan nizamlanması ilə bağlı üzərinə götürdüyü razılaşmaları yerinə yetirməyə başlasın. Ancaq o bütün gücünü Rusiya Federasiyası, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli bəyanatına yenidən baxmağa sərf etməyə çalışır və bu qüvvələri Qərbdə tapır. Ermənistan qalmaqal yaratmağa və vəziyyəti az qala müharibədən əvvəlki vəziyyətə qaytarmağa çalışır. Amma bu, real deyil, regionda vəziyyət dəyişib. Qərb ölkələrinin - ABŞ, Fransa, bütövlükdə Aİ-nin bu dəfəki bu cür fəaliyyətinə gəlincə, onlar sadəcə olaraq vəziyyətdən sui-istifadə edərək nizamlanma prosesinə təsir göstərməyə qərar verdilər. Gördüyünüz kimi, Qərb Ermənistanın tərəfində durub. Artıq ABŞ Konqresinin Nümayəndələr Palatasının sədrinin Ermənistana onu dəstəkləmək üçün ora gəlməsi çox izahatlıdır.

**- Qərbi, dediyiniz kimi, biz bir daha konkret vəziyyətdə gördük, Azərbaycana təzyiq etmək qərarına gəldi. Yəni, bu bir daha onu göstərir ki, vəziyyətin özü müəyyən dərəcədə dövlətləri düşərgələrə ayırır və xüsusən də Moskva, Bakı və Ankara arasında qarşılıqlı əlaqənin güclənməsi prosesi gedir bir vaxtda...**

- Moskva, Bakı və Ankara yalnız qarşılıqlı əlaqəni artıracaq. Bəli, xarici şərait həqiqətən də obyektiv olaraq buna sövq edir. Axı nə Moskva, nə Ankara, nə də Bakı heç vaxt şərti Qərb dünyasına tamhüquqlu üzv kimi daxil olmayacaq. Təbii ki, Rusiya indi Qərblə əlaqələri faktiki olaraq tamamilə pozub, Türkiyə müstəqil xarici siyasət yürüdür, bu da Qərb paytaxtlarının xoşuna gəlmir. Biz görürük ki, uzun illər Rusiya ilə əməkdaşlığa görə necə tənqid olunub və indi bu, xüsusilə gərgindir. Prezident Ərdoğanın Soçi səfərinə, milli maraqlara riayət olunmasına, Qərbin anti-Rusiya sanksiya rejiminə qoşulmamasına görə. Bu şəraitdə Bakı Türkiyə və Rusiyaya yaxın olmaqla obyektiv olaraq öz müstəqil xarici siyasətini yeridəcək, bütün bu şəraitlə bağlı Qərbdən açıq-aydın uzaq olacaq. Heç vaxt olmadıqları kimi. Ona görə də bu reallıqlara əsaslanaraq, mən Moskva, Bakı və Ankara arasında münasibətlərin ardıcıl möhkəmlənməsini gözləyərdim. Onların necə gücləndiyini artıq görürük. Yadda saxlamaq lazımdır ki, Moskva ilə Bakı arasında münasibətlərin müttəfiqlik çərçivəsinə keçməsi barədə qərar Rusiyanın Ukraynada hərbi əməliyyatının başlaması ərəfəsində elan edilmişdi və Moskva, əlbəttə ki, Prezident Əliyevin və onun bu jestini yüksək qiymətləndirmişdir. Bakı Rusiya ilə münasibətləri dərinləşdirməyə və öz müstəqil xarici siyasətini həyata keçirməyə hazırdır. Ötən il Bakı ilə Ankara arasında Şuşa müttəfiqlik bəyannaməsi imzalanıb. Ona görə də təbii ki, şərait bu üç ölkəni sıx qarşılıqlı fəaliyyətə, iqtisadiyyatların və cəmiyyətlərin bir-birinə nüfuz etməsinə sövq edir.

**- Qarabağın statusu ilə bağlı həm də rəsmi İrəvan bu mövzunu manipulyasiya etməkdə davam edir... Moskvanın bu məsələyə münasibəti necə olacaq?**

- Nikol Paşinyan daim milli maraqlardan əl çəkmədiyini vurğulamağa məcburdur. Amma Qarabağın "status" məsələsi hələ 2020-ci ilin payızına qədər nədənsə aktual idi. İndi vəziyyət dəyişib və status məsələsi hətta Ermənistan rəsmilərinin bəyanatlarından da bəzən yoxa çıxır. Çünki status suverenliyin müəyyən məhdudlaşdırılmasını nəzərdə tutur ki, Azərbaycan buna heç vaxt razı olmayacaq. O, öz suverenliyini həm qanuni hüququ ilə sübut etdi, həm də əməli ilə. Ona görə də Qarabağın "statusu" məsələsi həll olunur, Qarabağ Azərbaycandır.

Rusiya bu barədə nə düşünür? Rusiya başa düşür ki, başqa variant yoxdur. Təbii ki, Rusiyada Ermənistanın tərəfində olan qüvvələr var və mən bunu qərəzli hesab edirəm. Amma Rusiyanın, birincisi, bu vəziyyətə Azərbaycan üçün müəyyən dərəcədə mənfi təsir göstərmək istəyi yoxdur. Çünki mahiyyət etibarı ilə Qarabağ məsələsi indi Azərbaycanla Rusiya arasında ikitərəfli münasibətlər məsələsidir. Müvəqqəti sülhməramlılar mandatı olan Rusiya bu məsələdə bir növ hakim deyil. Rusiya hər iki paytaxtın etimadını daşıyan vasitəçidir.

**- Anladığımız qədər, Rusiya Bakı və İrəvanın razılığı ilə sülh sazişinin imzalanmasında vasitəçilik rolunu öz üzərinə götürüb... Gərginliyin Dövlət Departamentinin nümayəndəsi Filip Rikerin səfərindən sonra baş verdiyi barədə şayiələr var. rayona...**

- Vladivostokda WEF çərçivəsində Vladimir Putin Nikol Paşinyanla sülh müqaviləsi məsələsini müzakirə edib. Şübhəsiz ki, Rusiya və Azərbaycan liderləri də bu məsələdə təmasdadırlar. ABŞ və Aİ Ermənistan-Azərbaycan nizamlanması çərçivəsində hər hansı mühüm qərarın onların iştirakı olmadan və müstəsna olaraq Rusiyanın iştirakı ilə qəbul edilməsinin qarşısını almağa çalışır. Bu, əlbəttə ki, Moskvanın xoşuna gəlmir. Azərbaycan prosesi irəli aparmaq üçün bütün imkanlardan - Rusiyadan, Amerikadan və Avropadan istifadə edəcək. Amma Rusiya hələ də prosesdə birinci və aparıcı rola malikdir. Çünki rus sülhməramlıları "yerdədir", coğrafi qonşuluq, tarixi əlaqələr isə mümkün qədər uzaqda olan Avropa, ABŞ ilə deyil, Zaqafqaziyada Rusiya ilə regional yaxındır.

**- Yeri gəlmişkən, Nikol Paşinyan bu yaxınlarda neçə dəfə mövzu qaldırıb - deyirlər, Ermənistanı Rusiyada qərbyönlü, Qərbdə isə rusiyayönlü kimi təmsil edən qüvvələr var. Keçən gün bu haqda danışırdım. Bu nə üçündür?**

- Nikol Paşinyanın rusiyapərəst və qərbyönlü olması mövzusunu gündəmə gətirməsi... yaxşı, bu, zamana verilən qiymətdir - Rusiya hərbi əməliyyatı hələ də Ukraynada aparılır. Aydındır ki, mahiyyət etibarı ilə dövlətlərin bu və ya digər mövqe tutacağı gözlənilir - ya rusiyayönlü, ya da antirusiya. Görünür, Nikol Paşinyan istəyir ki, Rusiya onu rusiyayönlü, Ermənistan isə Rusiyayönlü və müttəfiqi hesab etsin, çünki Qərbin bütün cəhdlərinə baxmayaraq, Rusiya nizamlanma prosesində Qərb ölkələrindən daha mühüm rol oynayır. Və İrəvandan Moskvanın getdikcə daha tez-tez tənqid olunması fonunda o, özünə haqq qazandırmaq istəyir.

*Tərcümə - Elçin Bayraml*

# Mənzərə

***Deyəcəksiniz bəs təbiətin qoynundayam, oradan gözəl mənzərələr paylaşmaq istəyirəm, hə? Axı mənzərə dedikdə gözlər önünə ilk gələn təbiət gözəllikləridir. Kaş ki, elə dediyim kimi də olardı. Dünən təbiətin qoynunda olardım. Heç yaşıllıqları, gül-çiçəyi demirəm, bir qayanın başında boz rəngdən ibarət böyük daş parçasına baxardım. O daş parçasına o qədər baxardım ki, zamanın ondan qopardığı, küləklərin ona qaytardığı cizgilərlə başımı qatardım. Baxmaqdan gözlərim yol çəkərdi, uzaqlara aparardı məni. Burada da boz qayalıqlardan başqa heç nə görməzdim. Saatlarla o qayalara tamaşa edərdim. Boz daşlar, oxşar daşlar, oxşar rənglər...***

İnanın ki, yorulmazdım. Baxardım, baxardım, bir qədər irəliyə addımlayardım. Başqa bir mənzərə ilə-yaşıllıqlarla, təbiətdən min rəng alan təbiət möcüzələri ilə qarşılaşmasam da, addımlayardım. O ümidlə addımlayardım ki, indi çıxar, bir azdan çıxar o mənzərələr qarşıma. Lakin ucsuz-bucaqsız çöllərdə irəlilədikcə bitməyən bu daşlı-qayalı ərazilərdə yenə də sıxılmazdım. Böyük ümidlərlə qarşıya gedərdim...

Saatlarla, günlərlə, aylarla gedərdim. Bu boz daşlı-qayalı, həm də yeriməyə mane olan yerlərdən keçərkən yıxılsam da, dizlərimdən qan süzsə də, irəliləyərdim. Kaş ki, təbiətin qoynunda olardım. O boz rəngli daşların əhatəsində olardım. Onlardan başqa heç nə görməzdim. İnanın nə yorular, nə bezərdim. Əsla, əsla, əsla...

Həyatda elə mənzərələr var ki, onlara baxandan sonra daşın-kəsəyin qədrini bilirsən. Deyirsən ki, ay gözlərim, baxın o daşlara-kəsəklərə, lakin bu mənzərələri görməyin. O daşlara baxmaq sizi kor etməz. Aylarla, illərlə də baxsanız yormaz, kor etməz. Amma bu mənzərələr bir andaca adamı kor edir. Özünə korluq arzulayırsan, görməmək üçün...



Metroda qatardan yenicə çıxıb eskalatora tərəf yön almışdım ki, bir hündürboy oğlan, iti addımlarla yanımdan ötüb, özünü eskalatora yetirməyə can atırdı. Yanımdan elə sürətlə keçdi ki, küləyinin məni yıxmadığına şükür etdim. Dedim ki, yəqin nə isə işi var da, tələsir. Nə olacaq, qoy sürətlə keçsin, qaçsın, uçsun, cavandır. Biz də cavan olmuşuq da. O qədər qaçmışıq ki... Təbii ki, küləyimiz heç kimi yıxmadan.

Mən də bu oğlanın ardınca çatdım eskalatora. Elə oldu ki, ard-arda dayanmalı olduq. Eskalatorda da nə edəsən axı ki, vaxt keçə, yol bitə. Başımı qaldırdım, gözüm bu oğlanın başına sataşdı. Baş nə baş. Ülgüclə tər-təmiz qırxılmış müasir bir baş. Lakin qarşıda qalan bir tutam saç rezinlə möhkəm yığılıb düşür oğlanın boynunun kökünə. Dedim, maşallah. Yəqin dəbdir, ayaqlaşır, nə etsin. Heyrətdən başımı aşağı saldım. Diqqətimi qarşımda kiminsə əməlli-başlı rəqsi özünə çəkdi. Başımı qaldıranda gördüm ki, bu oğlan ta yerində dura bilmir. Dedim, hə, bayaqkı yanımdan sürətli keçid bu musiqinin təsiri imiş ey, yoxsa bu oğlan hara tələsərmiş ki. Anladım...

Ətrafdakılar da ona tamaşa edir, çiyinlərini çəkir, gülümsəyirdilər. Onunsa qulağında qulaqcıqlar, dünyadan xəbəri yoxdur. Sanki biz yox imiş kimi özünü aparırdı. Sanki eskalator bu anlarda yalnız onun üçün işləyirdi.

Yanımda yaşlı bir qadın da dayanmışdı. Əyilib qulağıma dedi ki, biz bunlarla hara gedirik?..

Maraqlıdır, doğrudan, biz belələri ilə hara gedirik?

Elə bu mənzərəni düşünə-düşünə evə üz tutanda dedim, Allah, kor olasan belə mənzərələrlə qarşılaşmayasan. Sonra da dedim əşi, kor niyə olum axı. Belə mənzərə ilə qarşılaşınca aylarla dağa-daşa baxmağı gərək nəsib edərdin bizlərə, İlahi! O boz daşların mənzərəsi bu mənzərədən dəfələrlə ürəkaçıcıdır. Arzuya bax... Harada idi o xoşbəxtlik ki, bu mənzərəni görməkdənsə, o mənzərəni görərdik...

*Mətanət*
*MƏMMƏDOVA*

**FELYETON**

SON SƏHİFƏ
SƏS
21 sentyabr
2022-ci il

# Levandovski: "Barselona"nın böyük potensialı var



***"Barselona"nın hücumçusu, əvvəllər "Bavariya"da çıxış etmiş Robert Levandovski İspaniya və Almaniya çempionatlarını müqayisə edib. Onun sözlərinə görə, Bundesliqada daha çox fiziki döyüşə önəm verilirdi, La Liqada isə komandalar futbol oynamaq istəyir.***

SİA-nın rus saytlarından əldə etdiyi məlumata görə, Polşanın gündəlik idman qəzeti olan "Prizeglad Sportowy"ə danışan Levandovski daha sonra deyib:

"...Bundesliqa, əlbəttə ki, daha çox fiziki döyüşə yönəldilib. İspaniyada futbol oynamağa çalışan və istəyən daha çox komanda var. Bugünkü vəziyyətə baxışım belədir. Amma istisna etmirəm ki, gələcəkdə bizim müdafiə komandaları ilə də oyunlarımız var. Əsas odur ki, "Barselona"nın böyük potensialı var. Bu təmiz hava nəfəsi məni daim inkişaf etdirir, irəlilədir. Hiss edirəm ki, yeni enerji yükü almışam" .

***Ağasəf Babayev***

# Uşaqlarda dərs oxumağa necə maraq yaradaq?



PSİXOLOQ AYDINLAŞDIRDI

***"Məktəblər başlayandan sonra bütün valideynlər uşaqların dərs oxumamasından və diqqətlərinin yayınmasından şikayətlənir". Bu sözləri SiA-ya açıqlamasında psixoloq Aytən Ələkbərova deyib.***



Onun sözlərinə görə, bir çox valideyn övladlarında dərs oxumağa maraq yaratmağa çalışır: "Valideynlər oxumağı cəza növü kimi tətbiq edirlər. Təbii ki, rəğbətlənməyən bir yerdə alqış yoxdur. Biz öncə övladımızda maraq yaratmalıyıq və uşağın suallarına cavab verməliyik. Övladın öyrənmə qabiliyyətinə bələd olmalıyıq. Dərsdən gələn uşaq yeməyini qurtaran kimi onu məşğələyə və idmana göndərirlər. Fiziki yorğunluq beyinə imkan vermir ki, uşaq dərs yükünü anlasın. Uşaq bacarmadığını gördüyü zaman dərsdən imtina etməyə başlayır. Belə olduğu halda uşağa bir çox iradlar olur və bu iradlar şəxsiyyət kimi formalaşmasına maneədir.

Uşağın xarakterini araşdırmamış onu günahlandırmağa başlayırlar. Hətta iki övlad eyni sinifdə oxusa belə, onları müqayisə edirik. Kiçik yeniyetməlik dövrü 5-ci, 6-cı, 7-ci sinifləri əhatə edir. Bu zaman valideynlər zor tətbiq edərək dərsə meyilləndirməyə çalışırlar. Böyük yeniyetməlik dövrü 15 yaşından başlayır 17 yaşına qədər davam edir. Həmin dövrdə isə övladlarımızdan "yaxşı edirəm" və " mənə belə xoşdur" cümlələri ilə rastlaşırıq. Beləliklə münaqişələr artır. Belə olduqda psixoloqa müraciət olunmalıdır. Bu uşağın psixologiyasının pis olmasından və ya psixi problemi olmasından xəbər vermir. Bu psixoloji seanslar sadəcə uşağın xarakterini öyrənmək üçündür. Beləliklə uşağın maraq və potensiyalını öyrənirik. Bu şəkildə uşaq düzgün yönləndirilir. Seanslar apardığım bir çox abituriyent öz potensiyalını görərək qruplarını dəyişdi və yüksək nəticə əldə etdi. Bu isə şəxsdə özününənam formalaşdırır. Düşüncələrimiz fikirlərimizi formalaşdırır".

***Qönçə Quliyeva***

# "Yasak elma"nın aktrisaları arasında gərginlik

***Türkiyəli aktrisalar Eda Ece ilə Ebru Şahin arasında gərginlik yaranıb. Axşam.az xəbər verir ki, buna səbəb milli basketbol komandasdının Fransaya 87-86 hesabı ilə uduzaraq Avropa çempionat ilə vidalaşması olub.***

Bu məğlubiyyətə Ebrunun həyat yoldaşı Cedi Osmanın matçın son saniyələrində 2 sərbəst atışı qaçırması səbəb gətirilərək tənqid hədəfinə çevrilib. Tənqidçilər arasında Edanın sevgilisi basketbolçu Buğrahan Tuncer də olub. O, daha sonra paylaşımını silsə də tərəflər arasında gərginlik davam edib. Ebru Buğrahanın paylaşımını hədəf alan "Belə ulduz ola bilməzsiniz, amma nankor, bəli!" deyə yazıb.

Bundan sonra Eda həmkarını izləmədən silib. Lakin Ebru hələ də onu izləmədə saxlayıb.

Qeyd edək ki, hər iki aktrisa "Yasak elma" serialında birgə rol alıb.





# Qanunsuz balıq ovladı, üstəlik qayığı da yandırdı...



Kürdə qanunsuz balıq ovlayan şəxslər dövlət qurumunun qayığını yandırıblar. Bu barədə SiA-ya Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin rəisi Hikmət Əlizadə məlumat verib.

O qeyd edib ki, xidmət əməkdaşlarının keçirdiyi nəzarət tədbirləri zamanı Kür çayının Mingəçevir şəhərindən keçən hissəsində qanunsuz balıq ovlayan şəxs saxlanılıb: "Brakonyer xidməti vəzifələrini yerinə yetirən əməkdaşların qanuni tələblərinə tabe olmayaraq onların olduğu qayığa yanacaq tökərək yandırıb. Hadisə nəticəsində müfəttiş Bəhruz Mustafayev yüngül yanıq xəsarətləri alıb. Hadisə ilə bağlı Mingəçevir Şəhər Polis Şöbəsinə məlumat verilib, polisin operativ müdaxiləsi nəticəsində təqsirkar şəxs saxlanılıb. Hazırda faktla bağlı polis şöbəsində araşdırma aparılır".

# Diplomatik pasportunuz var?- onda bu ölkəyə vizasız gedəcəksiniz

Diplomatik pasportlara malik Azərbaycan vətəndaşları Kambocaya gedərkən viza tələbindən azad olacaq. SiA-nın məlumatına görə, parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin 23-də keçiriləcək iclasının gündəliyinə "Azərbaycan Respublikası Hökuməti ilə Kamboca Krallığı Hökuməti arasında diplomatik pasportlara malik şəxslərin viza tələbindən azad edilməsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi daxil edilib. Müzakirələrdən sonra sənədin Milli Məclisin plenar iclasına tövsiyə edilməsi nəzərdə tutulur.



Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 3600